RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 188 (9355) 2 SENTYABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Şərtləri diktə edən İlham Əliyevdir

## Azərbaycan suveren ərazilərində "boz" nəzarətsiz bölgənin olmasına imkan verməyəcək

Proseslər göstərir ki, Qarabağ iqtisadi rayonunun erməni əhalisinin yaşadığı ərazidə baş verənlər məsələyə təcili müdaxilə etməyə zərurət yaradır. Çünki separatçı rejim Vətən müharibəsindən sonra Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlılarının vasitəçiliyi ilə revanşistlərə silah-sursat daşıyıb, eyni zamanda bölgədə faktiki olaraq "boz zona" yaradıblar. Bütün bunlar isə 10 noyabr Bəyannaməsinin müddəalarına ziddir. Üçtərəfli razılaşmaya əsasən, erməni silahlı dəstələri bölgədən çıxarılmalı, burada təhlükəsizliyin təmin edilməsini Rusiya sülhməramlıları həyata keçirməli idi. Müharibədən ötən üç il ərzində isə bunların heç birinə əməl edilməyib. Əvəzində separatçılar hələ də gizləndikləri əraziləri "boz zona"ya çevirməyə cəhd göstərirlər. Lakin Azərbaycan öz ərazisində buna imkan verə bilməz. Elə avqustun 31-də Qarabağa səfər edən Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də bu məsələyə toxunaraq birmənalı şəkildə bəyan etdi ki, Azərbaycan öz ərazisində "boz" nəzarətsiz bölgənin olmasına dözmək niyyətində deyil. Qeyri-qanuni rejim buraxılmalı və tərk-silah olunmalıdır. Bu, tam olaraq beynəlxalq hüquqa əsaslanır. Azərbaycan öz suveren ərazisində sabitliyi, təhlükəsizliyi təmin etmək üçün istənilən addımı ata bilər.

→ 3

# Azərbaycan ilə Özbəkistanı əsl dostluq və qardaşlıq telləri birləşdirir

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə



Hörmətli cənab Prezident!

Qardaş Özbəkistan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu gün Sizin liderliyiniz və uzaqgörən siyasətiniz nəticəsində Özbəkistan dövlətçilik ənənələrinə və prinsiplərinə sadiq qalaraq sosial-iqtisadi yüksəliş yolu ilə inamla irəliləyir. Rəhbərliyiniz altında ölkənizin əldə etdiyi mühüm nailiyyətlərin, beynəlxalq aləmdə qazandığı nüfuzun və hər keçən il daha böyük uğurlara imza atmasının şahidi olmaqdan xüsusi məmnunluq duyuruq. Regionda cərəyan edən proseslərdə fəal rolu və mövqeyi Özbəkistana ən mötəbər beynəlxalq təşkilatların toplantılarını və zirvə görüşlərini yüksək səviyyədə keçirməyə imkan yaradır.

Azərbaycan ilə Özbəkistanı əsl dostluq və qardaşlıq telləri birləşdirir. Belə möhkəm təməllər əsasında qurulmuş ikitərəfli münasibətlərimizin və strateji tərəfdaşlığımızın ildən-ilə yüksələn xətlə inkişaf etməsi və konkret məzmunla zənginləşməsi bizi sevindirir.

Aramızdakı açıq və fəal siyasi dialoq, ali səviyyəli qarşılıqlı səfərlərimiz, mütəmadi görüşlərimiz, imzalanmış çoxsaylı sənədlər, uğurla həyata keçirilən birgə layihələr, o cümlədən Hökumətlərarası Komissiyanın fəaliyyəti əməkdaşlığımızın müsbət dinamikasını şərtləndirərək yeni tərəfdaşlıq istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynayır.

Bir neçə gün əvvəl Azərbaycana həyata keçirdiyiniz dövlət səfəri Azərbaycan-Özbəkistan əlaqələrinin tarixində yeni səhifə açmış, strateji tərəfdaşlığımızın hərtərəfli inkişafına güclü təkan vermişdir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın prioritet sahələrinin inkişafı, beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində uğurlu birgə fəaliyyətimizin davam etdirilməsi və genişləndirilməsi yolunda bundan sonra da səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2023-cü il*

# Azərbaycan-Slovakiya dostluq əlaqələri möhkəmlənir

## Slovakiya Respublikasının Prezidenti zati-aliləri xanım Zuzana Çaputovaya

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu il diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü qeyd edəcək Azərbaycan ilə Slovakiya arasında əlaqələrin dinamikası məmnunluq doğurur. Ölkələrimizin fəal dialoqu bir sıra sahələrdə, xüsusilə də enerji sahəsində əməkdaşlığımızın yüksələn xətlə inkişaf etməsinə şərait yaratmışdır.

Əminəm ki, Azərbaycan-Slovakiya dostluq əlaqələrinin möhkəmləndirilməsi, ticarət, investisiya qoyuluşu, nəqliyyat və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın böyük potensialının reallaşdırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2023-cü il*

# Elçin ƏMİRBƏYOV: "Ermənilər vaxtı uzadırlar və status-kvonu möhkəmləndirməyə çalışırlar"

Fransanın "L'Opinion" qəzetində Laçın yolu ətrafındakı vəziyyət barədə məqalə dərc olunub.

Məqalənin müəllifi Jan-Dominik Merşe Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovdan sitat gətirib. Belə ki, Elçin Əmirbəyovun sözlərinə görə, erməni tərəfinin məqsədi "mümkün qədər vaxt qazanmaq və mövcud status-kvonu möhkəmləndirməkdir".

Məqalədə həmçinin E.Əmirbəyovun "Sülh sazişi üzrə danışıqlarda konkret irəliləyişin mövcud olmadığı şəraitdə hərbi qarşıdurma riski artır" sözləri oxucuların diqqətinə çatdırılıb.

→ 3

# Ermənistanın təxribatı nəticəsində hərbi qulluqçularımız yaralanıb

Ermənistan silahlı qüvvələri bölmələrinin Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Tağıyev Məhəmməd Ramiz oğlu yaralanıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qarşı tərəfin təxribatı nəticəsində yaralanan hərbi qulluqçumuza dərhal ilkin tibbi yardım göstərilib və o, hərbi tibb müəssisəsinə təxliyə edilib.

* * *

Sentyabrın 1-i səhər saatlarında Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod istiqamətindəki bölmələri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisində yerləşən mövqelərinə qarşı zərbə PUA-sı tətbiq edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nəticədə daha iki hərbi qulluqçumuz yaralanıb.

# AZƏRBAYCAN 105

# 1918-1920-ci illərin "Azərbaycan" qəzetində Qarabağ məsələsi

"Azərbaycan" qəzetində ölkəmizin qədim guşələrindən biri olan Qarabağda, xalqımızın tarixi diyarlarından biri sayılan bu dilbər guşədə baş verən hadisələrə və onun vəziyyətinə, ümumiyyətlə, Qarabağ məsələsinə xüsusi diqqət yetirilirdi. Təsadüfi deyil ki, "Azərbaycan" qəzetinin rus dilində nəşrinin redaktoru olmuş İbrahim Xəlilin eyni vaxtda həm Azərbaycan, həm də rus dillərində "Qarışıq günlərdə Qarabağın vəziyyəti" ("Polojenie Karabaxa v smutnıe dni") sərlövhəli silsilə məqalələri dərc edilmişdir. Tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Akif Aşırlının "Xəlil İbrahim. İstiqlal yazıları" adlı kitabında o cümlədən qeyd edilir: "1917-ci ilin oktyabr ayından sonra Qarabağdakı vəziyyəti təsvir və təhlil edən İbrahim Xəlilin qeydlərindən anlaşılır ki, Qafqaz İslam Ordusu ilə yanaşı, Azərbaycan hərbi qüvvələri Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşdüyü vaxtlarda Xəlil İbrahim Şuşada olub və Qarabağda cərəyan edən hadisələri "Qarışıq günlərdə Qarabağın vəziyyəti" adlı məqaləsində təfsilatı ilə qeydə alıbdır".

→ 5

# XİN: "Ermənistanın törətdiyi təxribatlara görə məsuliyyət tam şəkildə bu ölkənin üzərinə düşür"

Ermənistan tərəfindən ölkə daxilində gərgin siyasi-ictimai vəziyyətdən diqqəti yayındırmaq, habelə beynəlxalq ictimaiyyəti yanıltmaq məqsədilə törədilən bu kimi əməllər ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib.

Vurğulanıb ki, Ermənistanın törətdiyi təxribatlara görə məsuliyyət tam şəkildə bu ölkənin üzərinə düşür.

Azərbaycan bundan sonra da bu kimi təxribatların qarşısının alınması istiqamətində bütün lazımi tədbirləri görməyə davam edəcək.

# Ermənistanda hakimiyyət böhranı yaranıb

Bir məsələyə xüsusi olaraq toxunmağı vacib hesab edirik. Qarabağda hər hansı "humanitar böhran"dan söhbət gedə bilməz. Gerçəkdən də Qarabağda ərzaq böhranı olsa, qapıda dayanmış iki yük un maşınını qəbul edərdilər. Deməli, məsələ başqadır. Ermənistanda hakimiyyət böhranıdır. Xankəndidə siyasi böhran yaşanır. İstər separatçı rejim, istərsə də Ermənistanda olan siyasətbazlar dimdiklərindən tora düşüblər. Apardıqları səhv siyasət onları dalana dirəyib. Narazı xalqın diqqətini yayındırmaq üçün müharibə görüntüsü yaradıb əhalini qorxu altında saxlamaq istəyirlər. Necə deyərlər, siyasətçilər susanda silahlar danışır. Görünən budur ki, nə Ermənistanda, nə də Qarabağda olan revanşistlərin erməni xalqına deməyə sözləri qalmayıb.

→ 4

# Ermənistan bölgədə vəziyyəti gərginləşdirir

Sentyabrın 1-i səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən bölmələri Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlar, minaatanlar, artilleriya qurğuları və zərbə PUA-larından atəşə tutmaqla bölgədə vəziyyəti gərginləşdirir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bundan başqa, Ermənistan tərəfi Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətindəki mövqelərinə əlavə döyüş texnikası və canlı qüvvə cəmləşdirir. Ermənistan tərəfi növbəti təxribatlar üçün zəmin yaratmaq məqsədilə dezinformasiya xarakterli məlumatlar yayır və beynəlxalq ictimaiyyətdə yanlış fikir formalaşdırmağa çalışır. "Yaranmış gərginliyə və onun fəsadlarına görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - məlumatda vurğulanıb.

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 664-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli, 17 iyul tarixli 2221 nömrəli, 18 iyul tarixli 2228 nömrəli, 1 avqust tarixli 2272 nömrəli, 16 avqust tarixli 2299 nömrəli və 18 avqust tarixli 2305 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 58-ci hissədən "528.1 (ictimai işlər növündə inzibati tənbehin, habelə probasiya nəzarətinin tətbiqi ilə bağlı məhkəmə qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsi halları istisna olmaqla)," sözləri çıxarılsın və həmin hissəyə "maddələrində" sözündən sonra ", ictimai işlər növündə inzibati tənbehin, habelə probasiya nəzarətinin tətbiqi ilə bağlı məhkəmə qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsi halları istisna olmaqla, Məcəllənin 528.1 və 528.1-1-ci maddələrində" sözləri əlavə edilsin.

2. 58-1-ci hissədən "528.1 (ictimai işlər növündə inzibati tənbehin, habelə probasiya nəzarətinin tətbiqi ilə bağlı məhkəmə qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə münasibətdə)," sözləri çıxarılsın və həmin hissəyə "maddələrində" sözündən sonra ", ictimai işlər növündə inzibati tənbehin, habelə probasiya nəzarətinin tətbiqi ilə bağlı məhkəmə qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə münasibətdə Məcəllənin 528.1 və 528.1-1-ci maddələrində" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 58-2-ci hissə əlavə edilsin:

"58-2. Məcəllənin 529.1-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

58-2.1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda göstərilən orqanın (qurumun) adından - inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarı qəbul etmiş və həmin Siyahıda nəzərdə tutulan digər vəzifəli şəxsləri;

58-2.2. yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalara münasibətdə yerli icra hakimiyyəti orqanı adından - bu Siyahının 57.2.3-cü yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 sentyabr 2023-cü il*

# Qafqaz Müsəlmanları İdarəsinə maliyyə yardımı göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında dini dəyərlərin qorunması və daha da inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 sentyabr 2023-cü il*

# C.C.Əsgərovun "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Cahangir Calal oğlu Əsgərov "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsindən azad edilsin.

2. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti Samir Musa oğlu Rzayevə həvalə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 sentyabr 2023-cü il*

# Çinin Çendu şəhərində keçirilən XXXI Ümumdünya Yay Universiadasında və Sloveniyanın Maribor şəhərində keçirilən Avropa Gənclər Yay Olimpiya Festivalında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Çinin Çendu şəhərində keçirilən XXXI Ümumdünya Yay Universiadasında və Sloveniyanın Maribor şəhərində keçirilən Avropa Gənclər Yay Olimpiya Festivalında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 291 200 (iki yüz doxsan bir min iki yüz) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi:

2.1. İdmançılar arasında rəqabətin səviyyəsi və ən yüksək nəticələrə görə medalların sayı nəzərə alınmaqla idmançıların, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünə və ödənilməsinə dair qaydanı 15 gün müddətində hazırlayıb təsdiq etsin.

2.2. Bu Sərəncamın 1-ci hissəsi ilə ayrılmış vəsaitin bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş qaydaya uyğun olaraq ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 sentyabr 2023-cü il*



# Quba Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim edilib

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan İlqar Akif oğlu Mahmudov sentyabrın 1-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlət başçısının tapşırıq və tövsiyələrini çatdırıb. İ.Mahmudov ona göstərilən etimada görə minnətdarlıq edib.

# Şamaxıda Azərbaycan Dili və Ədəbiyyatı Forumu işə başlayıb

## Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan forum sentyabrın 2-3-də işini Bakıda davam etdirəcək





Sentyabrın 1-də Şamaxıda Azərbaycan Dili və Ədəbiyyatı Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə keçirilən forum Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində gerçəkləşib.



Mədəniyyət naziri Adil Kərimli tədbirin açılış mərasimində çıxış edərək forumun əhəmiyyətini vurğulayıb. Nazir bildirib ki, Ümummilli Liderin 100 illiyinə həsr olunan forumun açılış mərasiminin Şamaxıda keçirilməsi rəmzi məna daşıyır. Ulu Öndərin Şamaxının tarixi və ədəbi irsi haqqında dediyi sözlər tədbirin açılışının bu şəhərdə keçirilməsinə təkan verən əsas amildir.

Ədiblər şəhəri sayılan Şamaxının UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilməsinin nəzərdə tutulduğunu vurğulayan nazir bildirib ki, belə forumların keçirilməsi cəmiyyətin inkişafı, mədəniyyətimizin zənginləşdirilməsi, gələcəkdə daha geniş üfüqlər açılması baxımından olduqca əhəmiyyətlidir. Azərbaycan Dili və Ədəbiyyatı Forumu mühüm mövzuların mütəxəssislərin iştirakı ilə müzakirəsi və əldə edilən nəticələri həyata keçirmək məqsədi daşıyır. Azərbaycan dili çox vacib sahələrdən biridir. Ümummilli Lider hər zamanı ana dilimizi yüksək qiymətləndirib, onun qorunmasına, saflığının təmin edilməsinə, inkişaf etdirilməsinə önəm verib. Ulu Öndərin azərbaycançılıq və dövlətçilik fəlsəfəsində Azərbaycan dilinə xüsusi yer verilib. Onun siyasi fəaliyyətinə nəzər saldıqda bunu açıq şəkildə görmək mümkündür. Bu səbəbdən Azərbaycan Dili və Ədəbiyyatı Forumunun Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində keçirilməsi önəmlidir. Hazırda isə dövlətimizin başçısı İlham Əliyev tərəfindən Azərbaycan dilinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü davamlı tədbirlər, xüsusilə Azərbaycan dilinin saflığının qorunması, onun kənar təsirlərdən mühafizə olunması, dilin tərkibinin inkişaf etdirilməsi istiqamətində çoxşaxəli siyasət həyata keçirilir. Bu istiqamətdə Mədəniyyət Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının üzərinə böyük məsuliyyət düşür".

Hazırda bu məsələ ilə bağlı mədəniyyət strategiyasının hazırlandığını qeyd edən nazir deyib: "Mədəniyyət anlayışının sahələşdirilməsi istiqamətində layihələrin həyata keçirilməsinə xüsusi önəm verilir. Bu məsələ işçi qrupu səviyyəsində müzakirə olunub. İlk dəfə Azərbaycan dili mədəniyyətin başlanğıc və əsas sahəsi kimi ayrılıb. Bu barədə geniş fikir mübadiləsi aparılacaq. Eyni zamanda Azərbaycan dili mədəniyyətin digər sahələri üçün istiqamətverici mövqeyə malikdir. Bu baxımdan forumun məhz bu sahədə mövcud problemlərin üzə çıxarılması, onların geniş müzakirə edilməsi və gələcəkdə həlli istiqamətində səmərəli nəticələrə nail olacağına inanıram".

Elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan dilinin inkişafı, dilimizin saflığının qorunması və ana dilimizdə danışmaq olduqca vacib məsələlərdəndir. Ana dilində təhsil almağın önəminə toxunan nazir deyib ki, Azərbaycanda uşaqların bir çox dillərdə təhsil almaq imkanı var. Lakin ölkədəki şagirdlərin 90 faizi ana dilində təhsil almağı seçir. Bu, olduqca sevindirici haldır. Təhsil sisteminin əsas məqsədi şagirdlərə ana dilində yüksək səviyyədə təhsil verilməsidir. Azərbaycan məktəbləri və universitetlərində son illər ərzində ana dilində tədrisin keyfiyyətinin artırılması istiqamətində bir çox işlər görülüb. Eyni zamanda digər dillərdə təhsil alan şagirdlərə Azərbaycan dilində dərslər keçirilir. Bu il həmin dərslərin sayı digər illərə nisbətən artırılıb.

"Təəssüf ki, dilimizin Azərbaycandan kənarda yaşayan daşıyıcılarının təhsili ilə bağlı problemlər var. Bu tədris ilindən etibarən xarici ölkələrdə yaşayanlar üçün onlayn Azərbaycan dili dərsi keçiriləcək. Sevindirici haldır ki, artıq 400-dən çox müraciət daxil olub. Düşünürəm ki, bu, Azərbaycandan kənarda yaşayan həmvətənlərimiz üçün vacibdir. Cəmiyyətdə belə bir "mif" var ki, tədrisin Azərbaycan dilində aparıldığı məktəblər guya digərlərindən geri qalır. Bu, yanlışdır. Sözügedən "mif"i cəmiyyət olaraq dağıtmaq lazımdır və məlumatlandırma zamanı statistikaya istinad etmək vacibdir. Tədris dilindən asılı olmayaraq, ölkəmizdəki bütün məktəblər Azərbaycan məktəbləridir. Tədrisi digər dillərdə aparılan məktəblərdə Azərbaycan tarixinin ana dilində aparılması bu il bütün məktəblərdə tətbiq olunacaq. Bu, Zəfər tarixi və Hərbi hazırlıq fənlərinə də aiddir", - deyə Emin Əmrullayev vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli çıxışında diqqətə çatdırıb ki, Azərbaycan dili hər zaman olduğu kimi, bu gün də aktuallığını və funksionallığını qoruyur. Ulu Öndər Heydər Əliyevin ana dilimizin inkişafına hər zaman diqqət yetirdiyini deyən İ.Həbibbəyli bu siyasətin bu gün də davam etdirildiyini söyləyib. Akademik Azərbaycan dilinin, milli-mənəvi dəyərlərinin, mədəniyyətinin qorunub saxlanmasının ziyalıların hər zaman diqqət mərkəzində olduğunu və bu istiqamətdə AMEA tərəfindən bir sıra işlərin görüldüyünü deyib: "Lüğətçiliklə bağlı nə qədər müzakirə və mübahisələr olsa da, hazırda bu istiqamətdə ən yüksək səviyyədə iş gedir. Dilçilik İnstitutunda fonetika, morfologiya, sintaksis və digər bölmələrlə bağlı fundamental elmi əsərlər hazırlanır".

Azərbaycan Yazıçılar Birliyinin sədrinin müavini, Xalq yazıçısı Çingiz Abdullayev və Milli Məclisin deputatı Qənirə Paşayeva çıxışlarında Azərbaycan dilinin inkişafı ilə bağlı aktual məsələlərdən, o cümlədən dilimizin müasir problemləri, reallıqlar barədə danışıblar. Çıxışlarda məktəblərdə Azərbaycan dilinin tədrisi ilə bağlı fundamental yanaşmanın önəmi xüsusi vurğulanıb.

Açılış çıxışlarından sonra Azərbaycan dilinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonra forum çərçivəsində "Qloballaşmanın Azərbaycan dilinə təsiri və ana dilimizin saflığının qorunması mexanizmləri" mövzusunda ilk panel iclası keçirilib.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyevanın moderatorluq etdiyi iclasda akademik Nizami Cəfərov, Xalq yazıçısı Kamal Abdulla, Nəsimi adına Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli, institutun Terminologiya şöbəsinin müdiri Sayalı Sadıqova, şairlər Səlim Babullaoğlu və Aqşin Yenisey iştirak ediblər. Panel iclasında "Azərbaycan dilinin qloballaşma şəraitində inkişaf etdirilməsi mexanizmləri", "Dildə elmi üslubun inkişafına təsir edən amillər: elmi sahələrin inkişafı və dillərin inteqrasiyası", "Azərbaycan dili Azərbaycan ədəbiyyatının qoruyucusu kimi: dünən, bu gün, sabah", "Söz yaradıcılığı prosesi: dilin daxili imkanlarının canlandırılması və geniş ictimai istifadəsi olan xarici mənşəli sözlərə vətəndaşlıq statusunun verilməsi", "Xaricdə yaşayan azərbaycanlılar arasında dilin qorunması" və "İnternet məkanında Azərbaycan dilinin funksionallığı" mövzularında məruzələr dinlənilib.

Forumun ikinci panel iclası "Azərbaycan dili və ədəbiyyatı zaman kontekstində: klassik ənənələr və müasir trendlər" mövzusuna həsr olunub.

Yazıçı-publisist Azər Qismətin moderatorluq etdiyi iclasda Xalq şairi Sabir Rüstəmxanlı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru, akademik Rafael Hüseynov, yazıçılar Aqil Abbas, Şərif Ağayar, Sayman Aruz və şair Qismət Rüstəmov iştirak ediblər. Panel iclasında "Çağdaş Azərbaycan ədəbiyyatı: mövcud vəziyyət, problemlər və perspektivlər", "Zamanın ədəbi-bədii dəbi: ənənəvi təmayüllər və müasir trendlər", "Azərbaycan ədəbiyyatının dünyaya inteqrasiyası: Beynəlxalq təcrübədə istifadə olunan modellər", "Ədəbi yaradıcılığın stimullaşdırılması: beynəlxalq və milli ədəbiyyat mükafatları", "Müasir ədəbiyyat və milli-mənəvi dəyərlər. Bölgələrdə ədəbi proses" mövzularında məruzələr dinlənilib, müzakirələr aparılıb.

Qeyd edək ki, tanınmış dilçi və ədəbiyyatşünas alimlərin, yazıçı və naşirlərin qatıldıqları forum işini sentyabrın 2-3-də Bakıda davam edəcək. Ədəbi-elmi ictimaiyyətin nümayəndələrinin qatıldığı forumda mədəniyyətimizin yaşadılması, inkişafı və təbliğində Azərbaycan dili və ədəbiyyatının rolu, ana dilinin saflığının qorunub saxlanılması, müasir ədəbi proseslər, ölkəmizdə uşaq ədəbiyyatının ideoloji mahiyyəti və müasir problemləri, milli kitab sənayesinin hazırkı vəziyyəti və bu sahəyə dövlət dəstəyi, uşaq və yeniyetmələr arasında mütaliənin təbliği, teatr və kinonun inkişafında ədəbiyyat faktoru və digər istiqamətlərdə müzakirələr aparılır.

Mütəxəssislərin forumda səsləndirdiyi fikir və təkliflər ümumiləşdirilərək "Azərbaycan mədəniyyəti-2040" Dövlət Proqramında əksini tapacaq.



# Şərtləri diktə edən İlham Əliyevdir

## Azərbaycan suveren ərazilərində "boz" nəzarətsiz bölgənin olmasına imkan verməyəcək

**Ermənistan xeyli vaxtdır ki, Qarabağ və Şərqi Zəngəzurda vəziyyəti gərginləşdirmək üçün bütün çirkinliklərə əl atır. Rəsmi İrəvan siyasi manipulyasiyasının, şantaj və böhtanlarının iflasa uğradığını görən kimi isə hərbi təxribatlar törətməklə beynəlxalq ictimaiyyətdə yanlış fikirlər formalaşdırmağa çalışır.**

Azərbaycanın Qarabağın erməni sakinlərinə yardımından imtina edilməsi, "humanitar fəlakət" şousu yaradılması, Ağdamda nəzərdə tutulan görüşdən yenə də son anda imtina olunması və dünən Kəlbəcər istiqamətində hərbi təxribatın törədilməsi deyilənlərin əyani təsdiqidir. Bu, bir daha onu göstərir ki, Hayastanın siyasi-hərbi rəhbərliyi sülh sazişinin imzalanmaması üçün bütün imkanlarını səfərbər edir. Digər tərəfdən, siyasi manipulyasiyaların nəticə vermədiyini görən separatçılar hərbi təxribatlara əl atmaqla, guya Azərbaycanın Ermənistana qarşı yeni ərazi iddiasında olduğunu nümayiş etdirməyə can atırlar. Keçmiş "vasitəçi", hər zaman ermənipərəstliyini gizlətməyən Fransa da bu işdə canfəşanlıq edərək çirkin oyunlar oynayır.

Ermənistan siyasi rəhbərliyi hər zamankı kimi açıq-aşkar təxribatları ilə verdiyi sözə xilaf çıxdığını nümayiş etdirir. Maraqlıdır, görəsən, sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığnı bəyan edən Nikol Paşinyan bundan sonra Rusiya və ya Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə keçirilən görüşlərə hansı üzlə gedəcək?!

İkinci Qarabağ müharibəsindən əvvəl də, sonra da dünya qəbul edir ki, Qarabağ Azərbaycanın suveren ərazisidir. Azərbaycanın öz suveren ərazisində beynəlxalq hüquqa uyğun bütün addımları atmağa əsası var.

Ermənilər də Azərbaycandan torpaq qoparmağın, Qarabağın ətrafında mübahisəli vəziyyətin ömrünü uzatmağın artıq uğursuz taktika olduğunu başa düşürlər. Buna görə də Qarabağın erməni əhalisini əllərində "girov" saxlamaqla onların reinteqrasiya prosesinin qarşısını almağa can atırlar.

Proseslər göstərir ki, Qarabağ iqtisadi rayonunun erməni əhalisinin yaşadığı ərazidə baş verənlər məsələyə təcili müdaxilə etməyə zərurət yaradır. Çünki separatçı rejim Vətən müharibəsindən sonra Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlılarının vasitəçiliyi ilə revanşistlərə silah-sursat daşıyıb, eyni zamanda bölgədə faktiki olaraq "boz zona" yaradıblar. Bütün bunlar isə 10 noyabr Bəyannaməsinin müddəalarına ziddir. Üçtərəfli razılaşmaya əsasən, erməni silahlı dəstələri bölgədən çıxarılmalı, burada təhlükəsizliyin təmin edilməsini Rusiya sülhməramlıları həyata keçirməli idi. Müharibədən ötən üç il ərzində isə bunların heç birinə əməl edilməyib. Əvəzində separatçılar hələ də gizləndikləri əraziləri "boz zona"ya çevrməyə cəhd göstərirlər. Lakin Azərbaycan öz ərazisində buna imkan verə bilməz. Elə avqustun 31-də Qarabağa səfər edən Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də bu məsələyə toxunaraq birmənalı şəkildə bəyan etdi ki, Azərbaycan öz ərazisində "boz" nəzarətsiz bölgənin olmasına dözmək niyyətində deyil. Qeyri-qanuni rejim buraxılmalı və tərk-silah olunmalıdır. Bu, tam olaraq beynəlxalq hüquqa əsaslanır. Azərbaycan öz suveren ərazisində sabitliyi, təhlükəsizliyi təmin etmək üçün istənilən addımı ata bilər.

Bunu İkinci Qarabağ müharibəsinin qalib sərkərdəsi İlham Əliyev dəfələrlə Ermənistanın həm siyasi rəhbərliyinin, həm də onun havadarlarının diqqətinə çatdırıb. Amma Azərbaycan Prezidenti ilk növbədə hər zaman sülh müqaviləsinin bağlanmasının tərəfdarı olduğunu və yalnız bu halda bölgədə sabitliyin təmin edilə biləcəyini vurğulayıb.

Görünən odur ki, Nikol Paşinyan və onun "böyük" havadarı Emmanuel Makronun arzusu regionda təhlükəsizliyin, sabitliyin təmin olunmamasıdır. Afrikada ciddi problemlərlə üzləşən və ağır duruma düşən Fransa Cənubi Qafqazda da pozucu fəaliyyətindən əl çəkmir və burada vəziyyəti gərginləşdirmək istiqamətində işini davam etdirir. "Humanitar böhran" iddiasının boş yerə şişirdilməsi də bu prosesin tərkib hissəsidir. Paşinyana elə gəlir ki, Fransa hansısa formada ölkəmizə təzyiq göstərməklə Azərbaycanı nəyəsə məcbur edə bilər.

Bu, qətiyyən mümkün deyil. Çünki indi diktəni İlham Əliyev edir. Bu məqamda Makronun İlham Əliyevə sonuncu zəngini xatırlamaq yerinə düşər. Qalib sərkərdə telefon danışığı zamanı Fransa Prezidentinə bir daha reallıqları çatdıraraq dedi ki, Ağdam-Xankəndi yolunun istifadəsinə məqsədyönlü şəkildə Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəklədiyi qondarma rejim tərəfindən süni əngəllər yaradılır, həmçinin bundan siyasi manipulyasiya məqsədilə istifadə edilir. Reallıq budur ki, Ermənistan və qondarma rejim Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə Ağdam-Xankəndi yolu ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Həmçinin Ermənistan rəhbərliyi Azərbaycan tərəfi ilə razılaşdırmadan dövlət sərhədi istiqamətində humanitar təyinatlı olduğunu iddia etdiyi yüklər gətirib ki, burada da məqsəd siyasi möhtəkirlikdir.

İlham Əliyev mövqeyini konkret olaraq açıqlayıb. Verilən qərar budur ki, Ağdam-Xankəndi yolu açıldıqdan sonra Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət etməklə Laçın-Xankəndi yolundan istifadə edilə bilər.

Bu, bir daha Azərbaycan Prezidentinin qətiyyətli mövqeyinin əyani göstəricisidir. Sözü imzası qədər keçərli olan İlham Əliyevin verdiyi bütün qərarlar Azərbaycan xalqının mövqeyini əks etdirir. Bunu ermənilər də yaxşı anlayırlar və dəqiq bilirlər ki, İlham Əliyev nə deyirsə onu da reallaşdırır. Başqa hansısa yollara, vasitələrə əl atmağın mənası yoxdur.

Ermənistanın bəzi dairələri başa düşürlər ki, vaxtilə "Miatsum" layihəsi, yəni Qarabağı Ermənistana birləşdirmək ideyası iflasa uğrayıb. Onun hansısa formada davam etdirilməsi mümkün deyil. Hətta erməni siyasi ekspert Vahe Ovannisyan da xalqına müraciət edərək deyib ki, bu gün Azərbaycan heç nədən qorxmur, üstəgəl, Türkiyənin dəstəyinə malikdir. Görünən odur ki, Azərbaycan bütün dünyaya meydan oxuyur. Düşmənin etirafı Azərbaycanın bu gün hansı gücə sahib olduğunu bir daha təsdiqləyir.

İlham Əliyev də Ermənistana və onun havadarlarına mesaj ünvanlayaraq deyir ki, kimsə bizimlə təzyiq, təhdid dili ilə danışa bilməz. İndi regiondakı yeni reallıqları Azərbaycan müəyyənləşdirir. Beynəlxalq birlik də yaxşı görür ki, Cənubi Qafqazda sülhün qarantı Azərbaycandır. Ermənistanın regiona yeni "oyunçular" gətirmək "niyyəti" heç bir nəticə verməyəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## *Elçin ƏMİRBƏYOV:* "Ermənilər vaxtı uzadırlar və status-kvonu möhkəmləndirməyə çalışırlar"

Fransanın "L'Opinion" qəzetində Laçın yolu ətrafındakı vəziyyət barədə məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi Jan-Dominik Merşe Ermənistan rəhbərliyinin danışıqlar prosesini süni şəkildələngitdiyini və bundan əvvəl üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən qəsdən yayındığını bildirən Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovdan sitat gətirir. Belə ki, Elçin Əmirbəyovun sözlərinə görə, erməni tərəfinin məqsədi "mümkün qədər vaxt qazanmaq və mövcud status-kvonu möhkəmləndirməkdir".

Merşe göstərir ki, erməni separatçıları Azərbaycan hakimiyyəti tərəfindən göndərilən humanitar yükü daşıyan avtomobil karvanının Qarabağın ermənilərin məskunlaşdığı ərazilərinə keçməsinin qarşısını almaq üçün bu həftə Ağdamdan keçən yolu bağlayıblar. Nəşrdə deyilir ki, onlar bu davranışı həmin ərazilər üzərində Azərbaycanın suverenliyini tanımaq istəmədikləri ilə izah edirlər.

Məqalədə qeyd edilir ki, Bakı öz növbəsində bu humanitar məsələnin siyasiləşdirilməsini qəbuledilməz hesab edir və erməni əhalisini ərzaq və digər zəruri mallarla təmin etmək üçün müxtəlif marşrutlarla bağlı hər cür ayrı-seçkiliyi rədd edir. Müəllif vurğulayır ki, Azərbaycan Ağdam yolu açılandan sonra Laçın yolunun tam açılmasını təmin etməyə hazır olduğunu bildirib.

Nəşrdə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsinin fikrindən bir daha sitat gətirilir. E.Əmirbəyovun "Sülh sazişi üzrə danışıqlarda konkret irəliləyişin mövcud olmadığı şəraitdə hərbi qarşıdurma riski artır" sözləri oxucuların diqqətinə çatdırılıb.

## Azərbaycan XİN Şarl Mişelin mətbuat katibinin bəyanatına cavab verib

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin mətbuat katibinin bölgədəki vəziyyətlə bağlı sentyabrın 1-də yaydığı bəyanata münasibət bildirib.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Avropa İttifaqı tərəfindən bildirildiyi kimi, 2023-cü il iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilmiş üçtərəfli görüşdəki müzakirələrin nəticəsi olaraq aparılmış danışıqlardan sonra Azərbaycanın Qarabağ bölgəsinə yüklərin müxtəlif marşrutlarla çatdırılması, habelə Ağdam-Xankəndi yolunun açılmasına paralel olaraq Laçın yolundan istifadənin intensivləşməsi məsələləri razılaşdırılmışdı.

Buna baxmayaraq, Ermənistanın qondarma rejimi vasitəsilə qeyri-qanuni şərtlər və müxtəlif bəhanələr irəli sürməsi ilə əldə olunmuş razılıqdan boyun qaçırması sözügedən razılığın icrasına maneə törətdi.

"Həmçinin xatırlatmaq istərdik ki, cari ilin avqust ayının əvvəlində Azərbaycanın xüsusi nümayəndəsi ilə yerli erməni sakinlərinin nümayəndələri arasında görüşün təşkili ilə bağlı razılıq əldə edilməsinə baxmayaraq, son anda erməni tərəfi bu görüşdən imtina etdi.

Təəssüflər olsun ki, iyulun 15-dən bu günədək Ermənistan və onun qondarma rejimi sözügedən üçtərəfli görüş çərçivəsində razılaşdırılmış bu gündəliyin icrasına və irəli aparılmasına mane olmaqda davam edərək, bu istiqamətdə Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşların səylərini heçə endirir. Azərbaycan Ermənistana iki ölkə tərəfindən bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi əsasında sülh təklif edib. Digər istiqamətdə isə Azərbaycan Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlərin Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiyasında qərarlıdır. Azərbaycan bütün bu istiqamətlərə sadiqliyini nümayiş etdirməklə yanaşı, Ermənistan tərəfinin davam edən hərbi-siyasi təxribatları kontekstində, öz suverenliyini və ərazi bütövlüyünü BMT Nizamnaməsi və beynəlxalq hüququn digər universal sənədləri ilə təmin edilmiş bütün qanuni vasitələrlə müdafiə etmək hüququnu da özündə saxlayır", - deyə XİN-in şərhində vurğulanıb.

## *Azərbaycan Müdafiə Nazirliyi:* "Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat tamamilə yalandır"

Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Basarkeçər rayonunun Zod istiqamətində əlavə canlı qüvvə və döyüş texnikasının cəmləşdirilməsi ilə bağlı Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat tamamilə yalandır.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

"Qarşı tərəf bu cür dezinformasiyalar yaymaqla öz təxribatlarına haqq qazandırmağa çalışır", - deyə məlumatda vurğulanıb.

* * *

Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Zod istiqamətində PUA tətbiq edilməsi ilə bağlı Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat tamamilə yalandır və dezinformasiya məqsədi daşıyır. Ermənistan tərəfinin yaydığı bu məlumatı qəti şəkildə təkzib edirik.

Bu barədə Müdafiə Nazirliyinin açıqlamasında bildirilib.

***AZƏRTAC***

## *Edvard ROU:* "Yuta ştatının dini icmasının Azərbaycanla mənəvi əlaqələrinin dərinləşməsində maraqlıyıq"

Sentyabrın 1-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan ABŞ-nin Stirlinq Fondunun prezidenti Edvard Rounun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



QMİ-dən AZƏRTAC-a bildirilib ki, görüşdə QMİ sədri Stirlinq Fondunun həmtəşkilatçılığı ilə Bakıda Tolerantlıq Günü ilə bağlı keçirilən beynəlxalq konfransı xatırlayıb, Azərbaycandakı dini konfessiya rəhbərlərinin ABŞ-nin Yuta ştatına builki səfərini yada salıb. Bildirib ki, ölkəmizin multikultural dəyərlərinin təşviqi baxımından həyata keçirilən səfər zamanı nümayəndə heyətimiz Yutanın ən böyük sərvətinin məhz onun qonaqpərvər, insanpərvər, mənəvi baxımdan zəngin insanlarının olduğunu məmnunluqla müşahidə ediblər.

Stirlinq Fondunun Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minatəmizləmə əməliyyatlarında yaxından iştirak etməsini yüksək dəyərləndirən Allahşükür Paşazadə Uca Yaradana xoş gedən bu fəaliyyətin - müqəddəs dəyər olan insan həyatının qorunması yönündə səylərin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, dövlətimiz azad olunmuş torpaqlarımızı minalardan təmizləyərək yenidənqurma işləri həyata keçirir, işğal dövründə dağıdılmış, vandalizmə məruz qalmış dini-mənəvi abidələrimizi, məscidlərlə yanaşı, kilsələri və digər məbədləri bərpa edir. Həmçinin Allahşükür Paşazadə görüşdə iştirak edən, yeni təyinat almış din xadimi - Şuşada bərpa olunmuş Yuxarı Gövhər ağa məscidinin imamı Mirabdulla Həsənlini qonaqlara təqdim edib.

Azərbaycana hər bir səfərdən mənəvi zövq aldığını deyən Stirlinq Fondunun prezidenti Edvard Rou ölkəmizin multikultural həyat tərzinin olduqca böyük əhəmiyyət kəsb etdiyini, Yuta ştatının dini icmasının Azərbaycanla mənəvi əlaqələrin dərinləşməsində maraqlı olduğunu vurğulayıb. Allahşükür Paşazadəni Yuta ştatına bir daha səfərə dəvət edən amerikalı qonaq QMİ sədrini bölgədə, postsovet məkanında, ümumən dünyada tanınan müdrik dini lider kimi səciyyələndirib. E.Rou Şuşadakı məscidin fəaliyyətini bərpa etməsini gözəl hadisə kimi dəyərləndirib və yeni imamı təbrik edib.

Görüşdə həmçinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov da iştirak edib.

Sonda birgə xatirə fotosu çəkdirilib.

## Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Sentyabrın 1-də baş prokuror Kamran Əliyev Şabran Rayon Prokurorluğunun inzibati binasında Şabran, Siyəzən, Xızı və digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Görüşdə iştirak edən 23 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Sonra baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

***AZƏRTAC***

## Qərbi Azərbaycan İcması ABŞ-ni köhnəlmiş narrativlərdən istifadə etməməyə çağırıb

ABŞ-nin yalnız Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin hüquq və təhlükəsizliyindən, "blokada"dan danışıb Ermənistandan deportasiya edilmiş azərbaycanlıların hüquqlarına və qayıdışına toxunmaması ədalətsiz və qəbuledilməz yanaşmadır.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının ABŞ Dövlət Departamentinin mətbuat katibinin avqustun 31-də yaydığı bəyanata cavabında bildirilib.

Qeyd olunub ki, bütün bunlar, eləcə də Qərbi Azərbaycan İcmasının ABŞ-nin Dövlət katibi Entoni Blinkenə ünvanladığı məktuba hələ də cavab verilməməsi rəsmi Vaşinqtonun məsələlərə ikili standartlar prizmasından yanaşdığını göstərir.

Qərbi Azərbaycan İcması eyni zamanda ABŞ-ni "bütün açıq qalan məsələlər" kimi artıq köhnəlmiş narrativlərdən istifadə etməməyə çağırıb.

# Ermənistanda hakimiyyət böhranı yaranıb




Biz "oyun bitdi", dedik. Bu, təkcə Ermənistana yox, həm də onları əllərində oyuncaq edənlərə verilmiş ciddi mesaj idi. Bununla da Azərbaycan qəti mövqeyini açıqlamaqla daha ciddi işlər görməyin vaxtı çatdığını, ermənilərin "nazı ilə daha çox oynamaq" niyyətimizin olmadığını bildirdi. Ermənilər isə hələ də havadarlarının təhriki ilə "humanitar böhran" şousu qurur, "məzlum erməni" libası geyinib oyunbazlıq edirlər.

Fransadan göndərilən "humanitar yardım"ın Laçın yolu ilə ərazilərimizə buraxılmaması, Fransanın Azərbaycandakı səfiri Ann Buayonın Xarici İşlər Nazirliyinə çağırılıb Paris şəhərinin meri Ann İdalqo da daxil olmaqla Fransanın bir neçə şəhərinin rəhbər şəxslərinin müşayiəti ilə "humanitar yük" adı altında Laçın sərhəd-buraxılış məntəqəsi istiqamətinə nəqliyyat vasitələrinin göndərilməsi və həmin şəxslər tərəfindən Azərbaycana qarşı təxribatçı bəyanatlar səsləndirilməsi ilə bağlı Azərbaycan XİN-in Fransaya etiraz notası verməsi qarşı tərəfi daha ciddi düşünməyə məcbur etməlidir. Ermənilər "anlamalıdırlar" ki, "yazıq", "məzlum" oyunu oynamaq bir nəticə verməyəcək.

Azərbaycanın Qarabağın "çörək qıtlığı" çəkənlərinə 40 ton un göndərməsi "humanitar böhran" şousu yaradanların "dilini kəsdi". Ağdam-Xankəndi yolunu beton bloklarla bağlayan ermənilər bu dəfə Azərbaycanın xoş niyyətini Qarabağda separatçılıqla, araqızışdırmaqla məşğul olan Ruben Vardanyanın "Qarabağ təhlükəsizlik və inkişaf cəbhəsi"nin silahlı quldurları ilə qarşıladılar...

Aydın məsələdir ki, Qarabağda, Xankəndidə yaşayan erməni əhalisi separatçıların əlində girova, onların siyasi oyunlarının alətinə çevrilib. İstər Fransa, istərsə də onların oyunlarını Qarabağda və Ermənistanda icra edən siyasətbazlar məzlum əhalidən öz məqsədləri üçün istifadə edib "humanitar böhran" tamaşası göstərərək məsələni daha da dramatikləşdirməyə çalışırlar. Məqsədləri siyasi manipulyasiya ilə öz çirkin niyyətlərini həyata keçirməkdir. Təbii ki, Azərbaycan tərəfi ermənilərin qurduğu oyunu, sadəcə olaraq, seyr etmir, oyunbazları ağıllı olmağa çağırır, oyunun finalının nə ilə yekunlaşacağı ismarışını da verir: "Azərbaycan artıq öz torpağında nəzarətsiz zonaya tolerantlıq göstərə bilməz. Qanunsuz rejim buraxılmalı və tərk-silah edilməlidir". Məsələ çox konkret və başadüşüləndir. Azərbaycanın sərt üzünü göstərməsi, fransız "yardımsevərlərin" də sərhədlərimizə "dəyib qayıtması" hayları məyus etdi. Azərbaycanın prinsipial və qətiyyətli mövqeyini görən ermənilər ritorikanı yenidən dəyişdilər. Görünən budur ki, ağaları bu oyuncaq millətə yeni komanda verdi.

### Yeni komanda alan ermənilərə "Komando" hərbi birliklərimiz cavab verəcək

"Məzlumlara", "aclara", "blokada"da qalanlara yenidən "hücum" əmri verildi. "Atəşkəs"i ilk olaraq Livanda yaşayan ermənilər pozdular. Azərbaycan səfirliyinə hücum edən haylar Qarabağda "blokada"dan əziyyət çəkən ermənilərin "haqq səsini" dünyaya çatdırmaq məqsədi ilə səfirliymizə hücum təşkil etdilər. Elə bu ərəfədə Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, xarici jurnalistlər, beynəlxalq təşkilatların nümayəndələri Ağdamda, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qarabağa un aparan avtomobillərinin erməni silahlıları tərəfindən dayandırıldığı ərazidə idilər. Elə oradaca Prezidentin köməkçisi Azərbaycanın mövqeyini bir daha açıqlayaraq bildirdi ki, Azərbaycanın siyasəti ondan ibarətdir ki, öz ərazisində hər hansısa bir boz zonanın olmasını qəbul etməyəcək. Kimlərsə düşünür ki, onlar mövcud şəraiti olduğu kimi davam etdirəcəklər və separatist statusunda yaşamaqda davam edərək bu qeyri-qanuni rejimin mövcudluğunu təmin edəcəklər, bütün bunların heç biri baş verməyəcək.

Azərbaycanın qətiyyətli mövqeyini görən ermənilər aldıqları "təlimata" uyğun olaraq avqustun 31-də və sentyabrın 1-də sərhədlərimizdə silahlı təxribatlar törətdilər. Ermənistan silahlı qüvvələrinin Zod istiqamətindəki bölmələri Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisində yerləşən mövqelərinə qarşı zərbə PUA-larından və atıcı silahlardan istifadə etməklə atəş açdılar. Aranı qızışdırmaq məqsədi ilə edilən bu xain təxribat nəticəsində 3 hərbi qulluqçumuz yaralandı.

Bu məqamda bir məsələyə xüsusi olaraq toxunmağı vacib hesab edirik. Qarabağda hər hansı "humanitar böhran"dan söhbət gedə bilməz. Gerçəkdən də Qarabağda ərzaq böhranı olsa, qapıda dayanmış iki yük un maşınını qəbul edərdilər. Deməli, məsələ başqadır. Ermənistanda hakimiyyət böhranıdır. Xankəndidə siyasi böhran yaşanır. İstər separatçı rejim, istərsə də Ermənistanda olan siyasətbazlar dimdiklərindən tora düşüblər. Apardıqları səhv siyasət onları dalana dirəyib. Narazı xalqın diqqətini yayındırmaq üçün müharibə görüntüsü yaradıb əhalini qorxu altında saxlamaq istəyirlər. Necə deyərlər, siyasətçilər susanda silahlar danışır. Görünən budur ki, nə Ermənistanda, nə də Qarabağda olan revanşistlərin erməni xalqına deməyə sözləri qalmayıb.

Azərbaycan tərəfi 3 əsgərinin yaralanmasını, təbii ki, cavabsız qoya bilməzdi. Qisas alındı. Qəhrəman Azərbaycan əsgəri sərrast atəşlə düşmənə layiq olduğu cavabı verdi. Ermənistan Müdafiə Nazirliyinin məlumatına görə, qarşı tərəfin dörd ölüsü, bir yaralısı var.

Azərbaycan öz prinsiplərinə sadiqliyini hər zaman sübut edən ölkə olduğunu zaman-zaman göstərib. Biz ermənilərə sülh təklif etmişik və qarşı tərəfdən də adekvat reaksiya gözləyirik. Bunun əksinə gedib bizimlə "silah" dilində danışmaq istəyənlər, xaricdəki havadarlarından "hücum komandası" alanlar anlasınlar ki, belə bir səhvə yol verərlərsə, qarşılarında "Komando" hərbi birliklərimizi görəcək, başlarında "dəmir yumruğ"u hiss edəcəklər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Erməni diasporunun alətinə çevrilən mer

## Çirkab içində olan Parisin küçələrində işini buraxan Ann İdalqo hayların dalına düşüb

**Paris şəhərinin meri Ann İdalqo başda olmaqla, Fransanın bir neçə şəhərinin rəhbər şəxslərinin iştirakı ilə Laçın sərhəd-buraxılış məntəqəsi istiqamətinə "humanitar yük" adı altında nəqliyyat vasitələrinin göndərilməsi Azərbaycanın daxili işlərinə birbaşa müdaxilədir. Bu, Fransanın siyasi dairələrinin təxribatçılığının növbəti nümunəsidir. Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin etiraz notasında da qeyd edilib ki, belə təxribatçı addımlar ölkəmizin beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı qəsddir.**





Qəribədir ki, Paris meri şəhərinin ekoloji problemlərini bir kənara qoyaraq erməni sevdasına düşüb. Sakinlərinin və turistlərin təbirincə desək, Paris bu gün böyük zibilxananı xatırladır və Ann İdalqo şəhərin problemləri ilə məşğul olmaq əvəzinə, erməni diasporunun alətinə çevrilib.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Onların sözlərinə görə, Parisin qərəzli yanaşması Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirir.

### Ann İdalqonun məqsədi ermənilərdən dəstək almaqdır

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Fransa Ermənistanın çirkin siyasi oyunlarında alətə çevrilib: "Parisin meri Ann İdalqonun İrəvana səfəri, Fransa Prezidenti Emmanuel Makronun ölkəsinin çoxsaylı problemlərini bir kənara ataraq Qarabağda bir qrup separatçıya dəstək verməsi bunu açıq-aydın sübut edir. Ann İdalqo və Makron ermənilərin yaratdığı saxta şouda rol alıb, aktyorluq edirlər. Bunun başlıca səbəbi hakim zümrənin maddi maraqları və hökumətin həyata keçirdiyi yanlış siyasətdir. Rəsmi Paris regionda əlavə gərginlik yaradaraq münasibətlərə xələl gətirmək niyyəti güdür".

Deputatın dediyinə görə, son proseslər Paris merinin və prezidentinin hansı düşüncə və təfəkkürə sahib olduğunu açıq-aydın göstərir. Azərbaycan isə öz mövqeyini konkret şəkildə bildirib. Belə ki, heç bir dövlət razılığımız olmadan suveren ərazilərimizə yük daşıya bilməz. Bu tələbimiz beynəlxalq hüququn norma və prinsiplərinə də uyğundur. Əslində, bu gün ölkəmizin mövqeyini gücləndirən də budur. Yəni məsələyə məhz beynəlxalq hüquq prizmasından yanaşmağımızdır.

"Ölkəmiz əleyhinə davamlı olaraq müxtəlif təxribat xarakterli addımlar atması Fransanın həyata keçirdiyi siyasətin çirkin xarakterini və mahiyyətini ortaya qoyur. Paris unudur ki, bu cür cəhdlərlə Azərbaycanın mövqeyinə təsir göstərə bilməz. Heç kimin daxili işlərimizə qarışmağa hüququ yoxdur. Azərbaycan haqlı olduğu halda onun haqsız çıxarılması üçün göstərilən cəhdlər heç bir nəticə verməyəcək.", - deyə Ceyhun Məmmədov bildirib.

Deputat əlavə edib ki, Ann İdalqonun ermənipərəst mövqeyi onun yenidən prezident seçkilərinə qatılmağa hazırlaşdığından xəbər verir. Ola bilsin erməni icmasının seçkilərdə ona müəyyən maddi və mənəvi dəstək verməsi üçün o, belə bir yol tutub. Bunun nəticəsidir ki, Paris meri separatçıbaşı Araik Arutyunyana belə zəng edərək ona hərtərəfli yardım təklif edib.

Ceyhun Məmmədov Ann İdalqonun mer kimi uğursuz fəaliyyətindən də bəhs edib. Qeyd edib ki, Paris merinin başı Xankəndidə yaşayan bir qrup erməniyə qarışdığına görə, deyəsən o, əsas vəzifəsini unudub: "Yarıtmaz fəaliyyəti nəticəsində Paris bu gün ekoloji problemlərin artdığı və cinayətkarlığın geniş vüsət aldığı şəhərə çevrilib. Tullantıların şəhərdə yaratdığı pis qoxudan bezən sakinlər şəhər meriyasından dəfələrlə tədbir görməyi tələb etsələr də, heç bir nəticə olmayıb. Görünən odur ki, Ann İdalqo 10 ilə yaxın fəaliyyəti dövründə əsas vəzifəsindən irəli gələn öhdəliklərlə maraqlanmayıb. Hətta 3 milyona yaxın insanın yaşadığı Parisdə hər gün təmizlik işləri aparmağın böyük və çətin iş olması barədə açıqlama verməsi də onun uğursuz siyasətçi olduğunu sübut edir".

### Fransızlar ermənilərdən həmişə istifadə ediblər

Milli Məclisin deputatı Fazil Mustafa bildirib ki, Fransada türkofobiya, azərbaycanofobiya və islamofobiyanın tarixi kökləri var. Bunun əsas səbəbi Fransa dövlətinin vaxtilə Osmanlı imperatorluğu ilə apardığı tarixi rəqabətlə bağlıdır. Ona görə də siyasi keçmişi diqqətə alan fransızlar üçün bu gün türk düşmən obrazındadır. Lakin sözsüz ki, bunlar müasir dövrün çağırışlarına, münasibətlərin yeni mərhələsinə uyğun gəlmir.

Deputat deyib ki, erməni məsələsi bütün dövrlərdə Fransanın daxili siyasətində təsiredici gücə malikdir: "Fransızlar ermənilərdən siyasi çıxar kimi istifadə edir və bunu kifayət qədər yaxşı bacarırlar. Ermənilərin Fransa cəmiyyətinə inteqrasiyası da yüksək səviyyədədir. Bu inteqrasiya isə erməni lobbiçilik institutlarının uğurlu fəaliyyəti ilə gerçəkləşir".

Fazil Mustafanın sözlərinə görə, əslində, Paris meri üçün Qarabağ məsələsi və Azərbaycanın ona bəsləyəcəyi münasibət maraqlı deyil. Sadəcə olaraq, seçki kampaniyalarında erməni icmasından səs toplamaq üçün, guya, ermənilərin yanında olduğunu və onlara dəstək verdiyini nümayiş etdirir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qırmızı Xaç Komitəsi beynəlxalq statusunu çoxdan itirib

## "Humanitar" qurum 30 ildən çoxdur ki, Azərbaycan xalqına qarşı qərəzli davranış sərgiləyir

"...Əfsuslar olsun ki, bu günə kimi onların Qarabağdakı ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir. Bu da yolverilməzdir. Çünki bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Hətta Ermənistanın baş naziri dəfələrlə "Qarabağ Azərbaycandır" söyləyib. Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu, bizim legitim tələbimizdir".

Avqustun 2-də "Euronews" televiziyasında yayımlanan müsahibəsi zamanı rəsmi Bakının Qırmızı Xaç Komitəsindən qəti şəkildə etdiyi tələbi bütün dünyaya bəyan edən Prezident İlham Əliyev eyni zamanda bununla sözügedən komitənin mandatına, humanitar missiyasına uyğun fəaliyyət göstərmədiyinə, qərəzli, tərəf tutan davranışlar sərgiləyərək artıq beynəlxalq statusunu çoxdan itirdiyinə dair mesajını beynəlxalq ictimaiyyətin nəzərinə çatdırdı.

### Müəmmalı missiya

Təkzibolunmaz reallıqdır ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi Azərbaycanda fəaliyyət göstərdiyi 30 ildən çox müddətdə ölkəmiz, xalqımız üçün bir dənə də olsun adına, mahiyyətinə uyğun, misal göstərilə̇si layiqli addım atmayıb.

Təkcə 1990-cı illərdə sözügedən komitə 54 nəfər azərbaycanlı əsirlə bağlı izə düşüb, Ermənistan tərəfi ilə dialoq nəticəsində onlardan 17 nəfərin meyitlərini alaraq Azərbaycan tərəfinə təhvil verib. Lakin sonradan komitə işini davam etdirməyərək, həmin siyahı üzrə daha 37 nəfərin taleyinin necə olması barədə maraqlanmayıb, bu günə qədər də həmin əsirlərimizin ölməsi və ya qalması barədə heç bir məlumat verməyib.

Yəni "humanitar" qurum müəmmalı şəkildə başladığı missiyanı yarımçıq qoyub və bu günədək Birinci Qarabağ müharibəsində itkin düşmüş dörd minə yaxın azərbaycanlının taleyi ilə maraqlanmayıb, bu istiqamətdə heç bir əməli iş görməyib, prinsipial fəaliyyət ortaya qoymayıb

### Dörd minə yaxın insanımızın taleyindən hələ də xəbər yoxdur



Son iki əsr ərzində ermənilər milli düşmənçilik zəminində ardarda Azərbaycan xalqına qarşı qətliamlar, soyqırımları törədiblər. Birinci Qarabağ müharibəsində də bu mənfur əməllərini davam etdirərək xalqımıza qarşı saysız-hesabsız müharibə cinayətləri, Ballıqaya, Ağdaban, Başlıbel kimi faciələr yaşadıblar. 1992-ci il fevralın 26-da Xocalı sakinlərinə qarşı soyqırımı həyata keçirən erməni qatilləri 613 günahsız insanı xüsusi amansızlıqla qətlə yetiriblər.

8 ailəni tamamilə yer üzündən siliblər. Həmin gün 1275 Xocalı sakini girov götürülüb və erməni cəlladları tərəfindən amansız işgəncələrə məruz qalıblar.

Birinci Qarabağ müharibəsi dövründə 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq itkin düşüb. Ötən illər ərzində Ermənistan tərəfi bu vətəndaşlarımızın taleyi ilə bağlı heç bir məlumat verməyib.

Azərbaycan dövləti bu məsələni dəfələrlə beynəlxalq təşkilatların diqqətinə çatdırıb, lakin bununla bağlı Ermənistana hər hansı təzyiq edilməyib. Cəzasızlıq mühitindən yararlanan Ermənistan isə minlərlə azərbaycanlının aqibətini açıqlamaqdan nümayişkaranə şəkildə imtina edib.

Qırmızı Xaç Komitəsi də Ermənistanın tərəfini tutaraq itkin insanlarımızın taleyinə biganəlik göstərib.

Bu günə qədər işğaldan azad edilən ərazilərimizdə xeyli kütləvi məzarlıqlar aşkarlanıb. Artıq həmin məzarlıqlardan tapılan qalıqlar üzərində aparılan tədqiqatlar nəticəsində 15 nəfər itkin düşmüş vətəndaşımızın aqibətinə aydınlıq gətirilib. Onlardan 11 nəfəri hərbçi, 4-ü mülki şəxsdir.

Bu kütləvi məzarlıqlar həm Ermənistanın hərbi cinayətlərini faktlarla ortaya qoyur, həm də ermənilərin dörd minə yaxın azərbaycanlının taleyini nə üçün cidd-cəhdlə gizlətdiyinə aydınlıq gətirir.

Özünü dünyaya "humanist xalq", "insanlığın hamisi" kimi sırımağa çalışan terrorçu ermənilər heç istəyərmi ki, hərbi cinayətlərini elaləmə car çəksinlər!?

### Bu təşkilat separatizmə açıq dəstək verir

Bəs görəsən, Qırmızı Xaç Komitəsinə nə düşüb ki, 30 ildən çoxdur belə qəddar mövqedə dayanıb, azərbaycanlıların taleyinə biganəlik nümayiş etdirib, ölkəmizə qarşı qərəzli davranıb!?

Davamlı şəkildə erməni dəyirmanına su tökən Qırmızı Xaç Komitəsi 44 günlük müharibə zamanı da bu yaramaz fəaliyyətlə məşğul olub, ermənipərəstlik edib. Müharibə vaxtı Füzulidə ermənilər mühasirəyə düşərkən hay-küy salaraq bölgəyə gedən Qırmızı Xaç nümayəndələrinin onları Hadrut istiqamətində çıxartmağa çalışması heç kəsin yadından çıxmayıb.

Vətən müharibəsindən sonra Laçın sərhəd-buraxılış məntəqəsində Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı qaçaqmalçılıqla mal keçirilməsinin aşkar olunması, komitənin bunu etiraf etməsi və buna görə heç bir məsuliyyət daşımadıqlarını demələri də yaddaşlardadır...

1991-ci ildə Meşəlidə soyqırımı törətmiş müharibə cinayətkarlarından biri olan Vaqif Xaçaturyanın Laçın sərhəd-buraxılış məntəqəsində Qırmızı Xaç Komitəsinin avtomobilində aşkar edilməsi də unudulmayıb.

Bir sözlə, adına uyğun fəaliyyət göstərməyən komitənin minlərlə itkin vətəndaşımızın taleyinə aydınlıq gətirilməsi ilə bağlı hər hansı bir iş görməməsi bir yana, Qırmızı Xaç Komitəsi bayrağı altında hərəkət edən avtomobillərini müharibə cinayətkarları üçün sığınacağa çevirməsi də bir başqa utancverici və beynəlxalq qanunlara zidd davranışdır.

### Axı bu yarıtmaz qurum bizim nəyimizə lazımdır?

Gətirdiyimiz bəzi faktlardan da göründüyü kimi, Qızıl Xaç Komitəsi boynuna götürdüyü humanitar missiyanı yerinə yetirə bilmir, özü də lap çoxdan.

Qırmızı Xaç Komitəsi onilliklərdir itkin düşmüş doğmalarından bir xəbər almaq ümidi ilə səbirlə, inamla bu qurumdan məlumat gözləyən insanlarımızı gözüyaşlı, naümid, çarəsiz qoyub...

Əvəzində, üç onillik boyu ermənipərəst mövqe sərgiləyib, onlara can-başla xidmət edib. Bu yaramaz fəaliyyətini 44 günlük Vətən müharibəsi dövründə, eləcə də sonrakı müddətdə də davam etdirən Qırmızı Xaç Komitəsi mandatına uyğun olmayaraq siyasi mövqe tutur, separatçılara açıq-aşkar dəstək göstərir, beynəlxalq qanunları pozan əməlləri ilə birbaşa Azərbaycanın suverenliyinə zidd əməllərlə məşğul olur.

Və Qırmızı Xaç Komitəsinin azərbaycanlılara qarşı nümayiş etdirdiyi bütün bu qərəzli davranışları, erməniyönlü fəaliyyəti ortaya açıq və cavabının tezliklə tapılması mütləq olan bir sualı meydana çıxarır: axı bu yarıtmaz qurum bizim nəyimizə lazımdır?!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# AZƏRBAYCAN 105





# Tariximizin dürüst salnaməçisi



Qarabağ mövzusu Ü.Hacıbəylinin də "Azərbaycan" qəzetindəki yazılarında xüsusi yer tutur. Böyük publisist bu mövzunu özünə xas olan fərqli üslub və intellekt süzgəcindən keçirərək oxuculara təqdim edir. O, Qarabağ probleminin tarixi baxımdan tamamilə uydurma olduğunu göstərir, eyni zamanda erməni separatizminə, indiki dillə desək, beynəlxalq təcrübə (və hüquq) baxımından yanaşırdı. Üzeyir bəy məqalələrində göstərirdi ki, Qarabağ ermənilərinin torpaq iddiasına onların Azərbaycan hökumətinə itaətsizliyi kimi baxmaq lazımdır. O, "Eyni müamilə gözləyirik" (5 may 1919) məqaləsində Azərbaycanın rəsmi mövqeyini əks etdirərək Qarabağ ermənilərinin hökumətə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inadın artıq həyasızlıq dərəcəsinə çatdığını qeyd edirdi.

Məqalədə ingilis baş komandanının Bakı nümayəndəsi Şatelvortun Şuşa şəhərinə getməsi və Qarabağda yalnız Azərbaycan hökumətinin qanunlarının hökm sürəcəyi ilə bağlı erməniləri itaətə dəvət etməsi, buna baxmayaraq, ermənilərin öz "müttəfiqlərinə" arxayın olub müqavimət göstərmələrini qeyd etməklə onların daima Qərbin köləsi, xaricilərin əllərində alət olması faktını vurğulayır: "Yevropaya ümidvardırlar", ümidvar olmaqlarının əsasidəxi budur ki, müharibə əsasında müttəfiqlərə "kömək durub" düşmən qabağında "döş gərib qılınc vurubdurlar", bunun əvəzində müttəfiqlərdən "ənam" gözlüyorlar!"

İngilislərin timsalında ermənilərin havadarlarını açıq-aydın ittiham edən Üzeyir bəy göstərir ki, Azərbaycan hökuməti qəti addım atmalı, öz vəzifəsi müqabilində hər kəs ki, Qarabağda Azərbaycan hökumətinə qulaq asmalı, asi və xain hesab edilib layiqi olan cəzalara çatmalıdır.

Bu fikrini "Naxçıvan və Qarabağ" məqaləsində davam etdirən Üzeyir bəy göstərir ki, Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamalarının əsas səbəbi onların əllərinin daima Amerikanın, ingilislərin ətəyində olması və burada ingilislərin tərəfgirliyidir. Sayca ermənilərdən çox olub, yerlərinin böyük qismi müsəlmanlara məxsus olan Naxçıvanın general Revi tərəfindən may ayının 14-də Ararat hökumətinə təslimin, yeni yaranmış Azərbaycan hökumətinin yenə eyni ingilislərin köməyilə öz haqlarını hələ də yeridə bilməməsinə münasibət bildirən Üzeyir bəy yazırdı: "Bizi yandıran ingilislərin tərəfgirliyi və ya ingilis generalının bacarığı və ingilis miralayının bişüurluğu degildir. Özümüzün rəftarıdır ki, onun adına bacarıqsızlıq deməkdən başqa özgə bir ad qoymaq olmaz". ("Azərbaycan", 25 may 1919).

1918-1920-ci illərdə Andranik və Q.Njde kimi qatı millətçilərin başçılıq etdiyi erməni quldur dəstələri Naxçıvan və Şərurda, Zəngəzurda, Şuşa, Cəbrayıl və Cavanşir uyezdlərindən ibarət olan Qarabağda Azərbaycanın dinc əhalisinə qarşı amansız vəhşiliklər törədir, insanları kütləvi şəkildə qətlə yetirirdilər. Azərbaycan Məclisi-Məbusanı davamlı olaraq bu məsələni müzakirəyə çıxarırdı. Bu baxımdan parlamentin 1919-cu il yanvarın 15-də keçirilən iclasında M.Ə.Rəsulzadənin verdiyi bəyanat həyəcan təbili kimi səslənmişdi. Həmin bəyanatda deyilirdi: "Vətəndaşlar, Naxçıvan və Şərur uyezdlərində və İrəvan quberniyasının sair yerlərində müsəlmanlar, türklər başında yenə tazədən top qumbaraları partlıyor. Müsəlmanlar min dürlü əza və cəfalərə düçar oluyorlar. Hələ erməni-gürcü konfransında əskər tərxisi müzakirə edildikdə ermənilər demişlər ki, bizim daxili düşmənlərimiz var, asilərimiz var, onları tabe və tədib üçün əskər lazımdır: ona görə qoşunumuzu buraxa bilməyəcəgiz. Məgər bu düşmənlər yazıq, torpaqlarından əl çəkmək istəməyən zavallı naxçıvanlılar imiş, məgər bu düşmənlər istiqlaliyyət istəyən, heç kəsə qul olmaq istəməyib müstəqil yaşamaq arzusunda olan müsəlmanlar imiş".

M.Ə.Rəsulzadənin hökuməti bu məsələdə ciddi tədbirlər görməyə, nahaq tökülən qanların önünü almağa səsləyən çağırışına Ü.Hacıbəyli vaxtaşırı "Azərbaycan" qəzetində dərc etdirdiyi məqalələrində münasibət bildirirdi. Ədibin "Andranikin məsələsi" (15 dekabr 1918), "Fitnələr qarşısında" (23 yanvar 1919), "Qarabağ haqqında" (30 yanvar 1919) və s. məqaləleri Andranikin Qarabağı "müsəlmanlardan təmizləmək" məqsədilə onları qətlə yetirməsindən, Azərbaycan xalqının ermənilər tərəfindən top-tüfəng atəşinə tutulmasından, həmçinin milli dövlətimizin ermənilərin böhtan və iftiralarına da məruz qalmasından söhbət açır.

"Fitnələr qarşısında" məqaləsində Ü.Hacıbəyli hökumətin və müttəfiqlər ordusu komandanı general Tomsonun tədbirlərindən sonra Andranikin quldurluğunun sona çatdığını göstərsə də, ermənilərin növbəti taktikaya əl atmalarını, hökumətimizin top və tüfəng ağzından çıxan güllələrdən sonra daşnakların "Vperyod" qəzetinin iftira və böhtanlarına məruz qalmasını qeyd edir: "...top və tüfəng güllələrini dəf etmək bunların iftira və böhtanlarını rədd etmək işindən çox asandır. Çünki ermənilər cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustalığı ilə məşhurdurlar". Üzeyir bəy bir vətənpərvər ziyalı kimi xalqını "danos"lar hücumuna və "niş"inə qarşı hazır olmağa çağırır, gənc hökumətimizi "əqrəb"lərdən qorumağı hər kəsin borcu hesab edir.

Ədibin "Qarabağ haqqında" məqaləsində də "Naşe vremya" erməni qəzetinin Qarabağda quldur dəstələrinin təcavüzünün qarşısını almaq məqsədilə yaradılacaq general-qubernatorluq təşkilinə qarşı fitnəkarlıq və provakasiyalara analitik şərhi, jurnalist yanaşması və milli təəssübkeşliyi maraq doğurur: "...hökumətimiz Qarabağda general-qubernatorluq təşkil etmək istərkən, erməni hökuməti ilə müharibəyə girmək ehtimalını heç xəyalına böylə gətirməmişdir, çünki Qarabağ bizim, biz-bizim. Öz yerimizdə, öz torpağımızda nə sayaq "adminstrativ" şəkillər yapacağımız bizim öz işimizdir. Erməni hökumətinin və ya erməni milli komitəsinin bu cürə işlərimizə qatışmağa heç bir həqləri olmadığını özləri bilmirlərsə, o halda siyasiyatın ibtidai qaydalarından bixəbər və cahildirlər, özgələrindən öyrənsinlər".

Biz tarixə nəzər salsaq görərik ki, ermənilərin əsassız böhtan, qərəz və iftiralarla dolu təbliğat maşınını Azərbaycan xalqı, eləcə də Qərb dövlətləri daima müşahidə etmişlər. 1919-1920-ci illərdə Qafqazda, o cümlədən Azərbaycanda münaqişə zonalarında olmuş ingilis hərbi jurnalisti Skotland-Liddellin "Erməni-tatar sazişi. Qarabağda sülhün bərqərar olması" sərlövhəli yazısı Üzeyir bəy Hacıbəylinin gündəmə gətirdiyi problemə - erməni təbliğat maşınına Qərb siyasətçisinin verdiyi qiymət baxımından maraqlıdır: "Erməni mətbuatı qırğınlar, qəddarlıqlar barədə uydurmalarla və tatarlara qarşı təbliğatlarla doludur. Bu mətbuatda provakasiya çoxdur və heç şübhəsiz, indiki dövrdə Qafqazda və Ermənistanda baş verən milli münaqişələrin çoxuna görə məhz erməni mətbuatı cavabdehdir".

Yeni qurulmuş müstəqil Azərbaycan dövlətini parçalamağa, torpaqlarını ələ keçirməyə, əhalisini qırmağa can atan məkrli, təcavüzkar erməni millətçilərinin xarakterik xüsusiyyətləri Ü.Hacıbəylinin publisistik məqalələrində tam xarakterizə olunmuş, Cənubi Qafqazda daim münaqişə ocağı yaratmaqda Qərb imperialist dövlətlərin onlardan bir alət kimi daim istifadə etdikləri tutarlı faktlarla göstərilmişdir. Üzeyir bəyin həmin qənaətləri bu gün üçün də çox aktualdır.

## Müasir "Azərbaycan" nədən yazır?

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə "Azərbaycan" qəzeti də tarixin ona ayırdığı missiyaya fasilə vermiş oldu. Amma məmləkətimiz üçün istiqlal günəşi əsrin sonlarında yenidən doğdu.

Bu gün "Azərbaycan" qəzeti Xalq Cümhuriyyəti zamanında çıxan eyniadlı qəzetin varisi olaraq fəaliyyət göstərir və müasir dövrümüzün obyektiv salnaməsini yazmaq missiyasını davam etdirir. Qəzet beynəlxalq hüququn subyekti olan müstəqil Azərbaycanda gedən çoxşaxəli proseslərə işıq salır, müasir dövrün obyektiv mənzərəsini yaratmağa, xüsusən quruculuq və inkişaf dövrünün salnaməsini öz səhifələrində əbədiləşdirməyə çalışır.

Vaxtilə Ü.Hacıbəyli "Azərbaycan"ın səhifələrində "biz nədən yazmalıyıq, qəzetimiz üçün hansı mövzular önəmlidir" sualına cavab verərkən bu gün də aktuallığını itirməyən mövzuları bu şəkildə göstərirdi: Vətən abadlığı, millət səlamətliyi, cəmaət tərəqqisi, dövlət intizamı ilə bərabər, istiqlal, istiqlal və yenə də istiqlal!

Fikrimizcə, "Azərbaycan" qəzeti 105 il əvvəlki redaktorun bu tövsiyəsinə ləyaqətlə əməl edir. Qəzet bu gün də Vətənin abadlığı üçün görülən böyük quruculuq işləri, milli təhlükəsizlik problemləri, dövlət intizamına əməl olunması məsələləri ilə yanaşı, Azərbaycanın müstəqilliyini daim öndə saxlayır. Xüsusən 44 günlük qalibiyyətli Vətən müharibəsindən sonra bu vacib məsələlər "Azərbaycan" qəzeti üçün ən həssas mövzulara çevrilmişdir. Tanınmış elm adamlarının, ictimai xadimlərin, sosioloqların və digər peşə sahibi olan müəlliflərin qəzet səhifələrində bu mövzulardakı çıxışları maraqla oxunur.

Əlbəttə, kənar müəlliflər qrupu nə qədər sanballı olsa da, yenə də qəzet işinin ağırlığı redaksiyanın öz əməkdaşlarının - peşəkar jurnalist kollektivinin üzərinə düşür. Bu mənada "Azərbaycan" qəzetini də ətə-qana gətirən, onu oxucu auditoriyası üçün cazibədar edən məhz peşəkar əməkdaşlar, bu istedadlı qələm sahiblərinin bir-birindən maraqlı yazılarıdır.

"Azərbaycan" qəzetinin cəmiyyət həyatı ilə bağlı bütün məsələləri diqqət mərkəzində saxlaması, öz səhifələrində humanitar düşüncəyə, milli dəyərlərə, elm, təhsil, Ana dili və ədəbiyyat, mənəviyyat sahəsinin problemlərinə geniş yer ayırması çox təqdirəlayiqdir. Son illərdə Ana dili və ədəbi irsimiz haqqında yazılar, Üzeyir bəy Hacıbəyli, Cəfər Cabbarlı və Hüseyn Cavid ilə bağlı məqalələr maraqla oxunur. "Cavid sözünün qüdrəti" (23 oktyabr 2022), "Vaqif - özü və sözü" (16 avqust 2022), "Sözü uca tutan şair" (13 noyabr 2022), "Milli iradə və Zəfərdən sonrakı reallıqlar" (15 noyabr 2022) kimi yazılar yeniliyinə və informativ tutumuna görə oxuculara çox şey verir.

Təbii ki, "Azərbaycan"ın rəsmi qəzet olması ona müəyyən çərçivə verir, problemlərə yanaşmada bəzi düşünülmüş sərhədlər qoyur, amma heç bir halda jurnalistin yaradıcılıq azadlığını və tənqidləri məhdudlaşdırmır. Bəzilərinin yanlış təsəvvürünə görə, guya, rəsmi qəzetdə tənqidi yazı verilməsi məqsədəuyğun deyil. Amma "Azərbaycan"ın uzunillik təcrübəsi və xüsusən son illərdə dərc etdiyi kəskin tənqidi yazılar bu düşüncənin yanlış olduğunu göstərir. Oxucu reaksiyası göstərir ki, məhz bu tənqidi yazılar istənilən media qurumunun nüfuzunun artmasına səbəb olur. Ona görə də 105 yaşlı "Azərbaycan"ın səhifələrində tənqidi materialların və cəmiyyətin marağında olan mövzularda jurnalist araşdırmalarının çoxalması vacibdir.

*Qulu MƏHƏRRƏMLİ,*
*BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, filologiya elmləri doktoru, professor*

*(Əvvəli qəzetin 1 sentyabr tarixli nömrəsində)*

### Tarixin qan yaddaşı

# 1918-1920-ci illərin "Azərbaycan" qəzetində Qarabağ məsələsi

**Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin mətbu orqanının yaradılması hökumətin qarşısında duran başlıca vəzifələrdən biri sayılırdı. Hökumətin ciddi səyləri nəticəsində 1918-ci il sentyabrın əvvəllərində Gəncədə "Azərbaycan" adlı hökumət qəzetinin nəşri haqqında qərar qəbul edildi.**

Qəzetin ilk nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncədə Yelizavetpol qubernatorunun mətbəəsində çap olundu. "Azərbaycan" qəzetinin ilk nömrəsi dörd səhifədən ibarət olmuşdur ki, onun da iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dillərində çap olunmuşdur. Qəzetin "Heyəti təhriyə" imzası ilə işıq üzü görən ilk sayında "Bakının süqutu" haqqında həm Azərbaycan, həm də rus dillərində yazılar dərc edilmişdir. "Azərbaycan" qəzetində ölkəmizdə və dünyada baş verən ictimai, iqtisadi və siyasi proseslərə, həmçinin erməni-müsəlman toqquşmasına və ziddiyyətlərinə, bu toqquşmaların Rusiya mətbuatında necə əks etdirilməsinə diqqət yetirilirdi.

"Azərbaycan" qəzetinin səhifələrində müxtəlif rubrikalar, o cümlədən "Hökumət qərarları", "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Xarici xəbərlər ", "Azərbaycanda", "Bakı xəbərləri", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", Türkiyədə", "Türkiyə mətbuatı", "Qəzetlərdən", "Sülh ətrafında", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və s. var idi. "Azərbaycan" qəzetinin səhifələrində M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli, Xəlil İbrahim, Fərhad Ağazadə, Hacı İbrahim Qasımov, Məhəmməd ağa Şaxtaxtlı, Adilxan Ziyadxan, Əliabbas Müzhib, Şəfiqə Əfəndizadənin və başqalarının tariximizə, ədəbiyyatımıza və iqtisadiyyat, sənaye, ticarət tariximizə, maarif, mədəniyyət, siyasi vəziyyətimizə və s. mövzularda seriyalarla məqaləlari dərc olunmuşdur.

"Azərbaycan" qəzetinin ilk nömrəsində Avropa müharibəsinin başladığı andan "Zaqafqaziyanın müsəlman əhalisi üzərində törədilmiş zorakılıqların təhqiq edilməsi və əhaliyə vurulmuş ziyanın həcminin müəyyən edilməsi" üzrə komissiyanın yaradılması haqqında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 15 iyul 1918-ci il tarixli qərarı yerləşdirilmişdi. Həmin nömrədə məlumat verilirdi ki, İrəvan quberniyasındakı müsəlmanların vəziyyəti olduqca acınacaqlı və təsviredilməzdir. Cari il aprel ayının sonlarında dağıdılaraq talan edilmiş müsəlman kəndlərinin sayı 199, həmin kəndlərin əhalisinin sayı 135 min nəfər olmuşdur ki, onların da bir hissəsi ermənilər tərəfindən öldürülmüş və acından qırılmışdır, bir hissəsi isə türk qoşunlarının tutduğu ərazilərə köçmüşdür. Zaqafqaziyadakı vəziyyətlə tanış olmayan bu sətirləri oxuyan oxucu heyrətə gələr. Müsəlmanların, guya, yazıq və müdafiəsiz xristian xalqı olan ermənilər üzərində zorakılıq etdiyi haqqında ermənilərin xarici mətbuatda ardıcıl olaraq hər gün car çəkdiyi halda, birdən bəlli olur ki, zorakılıq, əksinə, ermənilər tərəfindən müsəlmanlara qarşı həyata keçirilmişdir.

"Azərbaycan" qəzetində ölkəmizin qədim guşələrindən biri olan Qarabağda, xalqımızın tarixi diyarlarından biri sayılan bu dilbər guşədə baş verən hadisələrə və onun vəziyyətinə, ümumiyyətlə, Qarabağ məsələsinə xüsusi diqqət yetirilirdi. Təsadüfi deyil ki, "Azərbaycan" qəzetinin rus dilində nəşrinin redaktoru olmuş İbrahim Xəlilin eyni vaxtda həm Azərbaycan, həm də rus dillərində "Qarışıq günlərdə Qarabağın vəziyyəti" ("Polojenie Karabaxa v smutnıe dni") sərlövhəli silsilə məqaləlari dərc edilmişdir. Tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Akif Aşırlının "Xəlil İbrahim. İstiqlal yazıları" adlı kitabında o cümlədən qeyd edilir: "1917-ci ilin oktyabr ayından sonra Qarabağdakı vəziyyəti təsvir və təhlil edən İbrahim Xəlilin qeydlərindən anlaşılır ki, Qafqaz İslam Ordusu ilə yanaşı, Azərbaycan hərbi qüvvələri Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşdüyü vaxtlarda Xəlil İbrahim Şuşada olub və Qarabağda cərəyan edən hadisələri "Qarışıq günlərdə Qarabağın vəziyyəti" adlı məqaləsində təfsilatı ilə qeydə alıbdır".

1918-ci ilin 31 Mart soyqırımından sonra doğulduğu yurda qayıdan X.İbrahim Qarabağda cərəyan edən hadisələri təfsilatı ilə qələmə alır, Şuşanın 12 silahlı erməni kəndi tərəfindən mühasirədəki vəziyyətinə, əhalinin çarəsizliyinə toxunur. Əsgəran keçidinin erməni silahlıları tərəfindən zəbtindən sonra Şuşanın ətrafla əlaqəsi kəsilir və nəticədə orada ərzaq və su qıtlığı yaranır. Həmin vaxtlar Şuşada yaşayan əhalinin sayının 40 minə yaxın olduğu və onların da əksəriyyətini müsəlmanlar təşkil etdiyi bildirilirdi. Hələ bu az imiş kimi ermənilər özlərinin "milli qəhrəman" saydıqları Andranik və Şahnazaryanın tezliklə Şuşaya gələcəyi haqqında şayiələri ilə müsəlman-türk əhalisinin narahatlığını artırırdılar.

Şuşa əhalisi şəhər komendantı Həsən Bəsri bəyin rəhbərliyi ilə özünümüdafiə qüvvələri yaradır, səfərbərlik elan olunur. 15 yaşından 60 yaşınadək kişilər siyahiya alınır və onlara hərbi təlimlər keçirilirdi. Mühasirə vaxtı Şuşanı tif epidemiyası bürüyür və hər gün 30-40 adam bu bəladan dünyasını dəyişirdi. Digər tərəfdən, ərzaq və su qıtlığı əhalinin sabaha umidini azaldırdı. Belə ağır və çətin durumda Azərbaycan-Türkiyə hərbi birliyi və yerli könüllü dəstələrdən formalaşan Qafqaz İslam Ordusu Qarabağın harayına yetişir. Cəmil Cahid və İsmayıl Həqqi bəyin dinc yolla ermənilərin təslimi haqqındakı ultimatumu öz işini görür. Xəlil İbrahimin yazdığı kimi, bir güllə atmadan Şuşa azad olunur.

Xəlil İbrahimin 21(8), 23(10), 28(15) oktyabr 1918-ci il və 1 noyabr (19 oktyabr) 1918-ci il tarixli "Azərbaycan" qəzetinin anadilli və rusca nəşrində davamlı 4 nömrədə dərc olunan "Qarışıq günlərdə Qarabağın vəziyyəti" ("Polojenie Karabaxa v smutnıe dni") məqaləsi Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı tarixinin öyrənilməsində əhəmiyyətlidir. "Azərbaycan" qəzetində erməni-müsəlman toqquşmalarının Rusiya mətbuatında necə əks etdirilməsinə də xüsusi diqqət yetirilirdi. Məsələn, qəzetin 8 dekabr 1918-ci il tarixli, 55-ci sayında qeyd edilirdi: "Biz azərbaycanlılar siyasətdə hələ bişməmişik, digərlərinin, xüsusilə bizim bədxahların istifadə etdikləri üsullardan istifadə edə bilmirik. Biz bütün Avropaya səs-küy salıb böyük dünyanı kandarından çıxara bilməmişik, hətta Avropada hamılıqla qəbul edilmiş qaydada özümüzə yaxşı bir dövri mətbuat yarada bilməmişik. Erməni-müsəlman toqquşmalarının ilk acınacaqlı günlərindən başlayaraq Rusiyanın tərəqqipərvər mətbuatının böyük əksəriyyəti müsəlmanlara qarşı münasibətdə düşməncəsinə mövqe seçdilər, müsəlmanları irticaçılıqda, onları mütləqiyyətin dayağı olmaqda, qaragüruhçuluğa meyilli olmaqda, vəhşiliklərdə və s. günahlandırdılar. Hərdən belə məzəli hallar da olurdu ki, onların böyük "akademik" orqanlarında, guya, müsəlmanlar tərəfindən məhv edilmiş Qafqazda heç vaxt mövcud olmayan şəhərlərin adları da peyda olurdu. Rusiyanın paytaxt mətbuatlarında belə hay-küyün yaradılması Avropa və dünya mətbuatına da təsirsiz ötüşmür və müsəlmanlar haqqında Qustav Emarın romandakı hansısa qırmızı dərilinin təəssüratını yaradırdı. "Müsəlman vəhşiliklərinin qurbanları haqda isə müxtəlif ölkələrin parlamentlərində sorğu edilirdi. "Qafqazda həmişə "döyülmüş döyülməmişi" daşıyıbdır və bizim vəziyyətimiz də həmin bacarıqsız yekəpər oğlanın vəziyyətini xatırladır. Bütün bunlar bizim hay-küy sala bilmədiyimiz, həmçinin "yaxşı mətbuat" yarada bilmədiyimiz ucbatından baş veribdir. Biz öz məqsədlərinə çatmağın yolundan baş açmayan siyasi rəqiblərimizə oxşamağı bacarmırıq və bunu istəmirik də. Biz sakitcə və soyuqqanlılıqla, öz haqlılığımızı dərk edərək, təmiz vicdanla öz məqsədimizə doğru irəliləyirik və inanırıq ki, bizimlə yanaşı olan gözlərini ədavət və eqoist, tamah hissləri tutmayan hər kəs və millətlər tərəfindən bizim loyallığımız, səmimiyyətimiz və urəyi açıqlığımız tanınacaqdır. Fakt meydandadır. İstəyən yoxlaya bilər".

Tarix şahiddir ki, XX əsrdən başlayaraq erməni daşnakları əsassız olaraq Azərbaycana qarşı ərazi iddiaları irəli sürürlər. Bu hal indiki dövrdə də davam edir. Hazırkı dövrdə "xalqların öz müqəddəratını təyin etmək" şüarı altında təcavüzkar erməni millətçiləri və onların havadarları tərəfindən Azərbaycan Respublikasının ərazisini parçalamaq cəhdləri davam edir. Bütün bunlar təcavüzkar erməni millətçiləri tərəfindən yürüdülən və perspektivi olmayan köhnə, iyrənc siyasətin davamıdır. Hazırda Azəbaycana qarşı irəli sürdükləri ərazi iddialarının əsassız olduğunu və onun iflasa uğradığını görən erməni millətçiləri və onların havadarları dünya ictimaiyyətinin fikrini azdırmaq məqsədilə elan edirlər ki, artıq onların Azərbaycana qarşı ərazi iddiaları yoxdur və Dağlıq Qarabağı müstəqil dövlət kimi qələmə verməyə, xalqımızın qədim yurdlarından biri olan Qarabağı Azərbaycanla qarşı-qarşıya qoymağa çalışırlar ki, bu da erməni millətçilərinin növbəti cəfəngiyyatıdır. Çünki Qarabağ Azərbaycan xalqının tarixi beşiyidir, əzəli və əbədi torpağıdır. Qarabağı Azərbaycanla qarşı-qarşıya qoymaq cəhdləri ermənilər tərəfindən hələ 100 il bundan əvvəl 1918-1920-ci illərdə də edilmiş və əlbəttə ki, heç bir müvəffəqiyyətə nail olmamışdılar. 21(8) oktyabr 1918-ci il tarixli, 14 №li "Azərbaycan" qəzeti yazırdı: "...ermənilər müsəlmanları qışda Qarabağ respublikasını tanımağa məcbur etmək istədilər. Ermənilər qurultay çağırdılar... həmin qurultayda ermənilərin əsl siyası siması üzə çıxdı. Qurultayın çağırılmasına qədər olan müddətdə ermənilərin təntənə ilə elan etdikləri sosializm, qardaşlıq, ədalət kimi şüarları unutdular. Səhnədə yalnız daşnakların dar millətçiliyi qaldı. Sırf daşnaklardan ibarət hökumət yaradıldı və onlar yalnız Andranik və Şahnazarovun gəlişini gözləyirdilər ki, müsəlmanlara güc tətbiq etməklə özlərinə tabe etsinlər". Lakin Azərbaycan hökuməti erməni millətçilərinin bu niyyətlərini alt-üst etdi. 1919-cu ilin yayında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın Qarabağda suveren hüquqları bərpa edildi. Parisdə olan Azərbaycan nümayəndələrinə göndərilən məlumatda qeyd edilirdi: "Qarabağ adlandırılan məsələ qəti şəkildə həll edildi... 7-ci erməni qurultayında Qarabağ errmənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq haqqında Qarabağın general qubernatoru Xosrov bəy Sultanovla sazış bağladılar".

*Rafiq SƏFƏROV,*
*Milli Arxiv İdarəsinin baş məsləhətçisi*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 297

QƏRAR

Bakı şəhəri, 30 avqust 2023-cü il

## "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın təsdiq edilməsi haqqında

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 fevral tarixli 2020 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması məqsədilə texniki şərtlərin və qaz təchizatı layihəsinin hazırlanması "ASAN Kommunal" mərkəzləri yaradılmadığı regionlarda bu mərkəzlər yaradılanadək "ASAN xidmət" mərkəzləri vasitəsilə həyata keçirilir.

2.2. Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi fəaliyyətə başlayanadək "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nda həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması qaydası

### 1. Ümumi müddəalar

1.1. "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası" (bundan sonra - Qayda) "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 3-cü hissəsinə əsasən hazırlanmışdır və aşağıdakı tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması üçün texniki şərtlərin və qaz təchizatı layihəsinin hazırlanması və verilməsi, habelə onların qazpaylayıcı şəbəkəyə qoşulması üzrə prosedur və tələbləri müəyyən edir:

1.1.1. ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə texnoloji qoşulması;

1.1.2. ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə bu Qaydanın 1.1.1-ci yarımbəndində nəzərdə tutulan tələblərə cavab verməyən tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması;

1.1.3. ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması.

1.2. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **qaz paylayıcısı** - alqı-satqı müqaviləsi əsasında istehlakçılara qazpaylayıcı şəbəkə vasitəsilə qazın paylanmasını, satılmasını və bu fəaliyyətlərlə əlaqədar xidmətləri həyata keçirən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti;

1.2.2. **sifarişçi** - qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması nəzərdə tutulan tikinti obyektinə və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinə mülkiyyət və ya digər əşya hüququ əsasında sahiblik edən şəxs;

1.2.3. **xidmət nöqtələri** - kiçik və orta biznes evləri (KOB evləri), "ASAN Kommunal" mərkəzləri;

1.2.4. **qoşulma xidmətinə görə ödəniş** - tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulmasına (fiziki və ya texnoloji) görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğ;

1.2.5. **qoşulma aktı** - sifarişçinin tikinti obyektinin qazpaylayıcı şəbəkəyə fiziki qoşulmasını təsdiq edən sənəd;

1.2.6. **qoşulma müqaviləsi** - tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması şərtlərini özündə əks etdirən və nümunəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən müqavilə;

1.2.7. **Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi** (bundan sonra - Sistem) - kommunal sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanıldığı və emal edildiyi informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, monitorinqlərin və analitik təhlillərin aparılmasını, proqnozların hazırlanmasını və qeyd olunan sahədə elektron xidmətlərin mərkəzləşdirilmiş qaydada göstərilməsini təmin edən informasiya sistemi;

1.2.8. **qaz təchizatı layihəsi** - tikinti obyektindən qazpaylayıcı şəbəkənin qoşulma nöqtəsinədək qaz xətlərinin tikintisinə (çəkilməsinə) və ya əlavə qaz həcmi alınmasına dair layihə sənədləri.

1.3. Bu Qaydanın məqsədləri üçün istifadə olunan digər anlayışlar "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan mənaları ifadə edir.

1.4. Hər bir sifarişçinin bu Qaydanın tələblərinə uyğun olaraq qazpaylayıcı şəbəkəyə qoşulma hüququ vardır.

1.5. Bu Qaydanın 1.1.1-ci yarımbəndində nəzərdə tutulan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə texnoloji qoşulmasına görə qaz qurğusunun istifadəçiləri qaz paylayıcısına Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə qoşulma xidmətinə görə ödəniş etməlidirlər.

1.6. Bu Qaydanın 1.1.3-cü yarımbəndində nəzərdə tutulan tikinti obyektlərinin qaz təchizatı üçün layihələndirmə və tikinti obyektlərindən qazpaylayıcı şəbəkənin qoşulma nöqtəsinədək tikinti-quraşdırma işləri istehlakçının seçdiyi podratçı və ya qaz paylayıcısı tərəfindən istehlakçının vəsaiti, dövlət sifarişi olduğu halda isə dövlətin vəsaiti hesabına həyata keçirilir. Ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə fiziki qoşulmasına görə qaz qurğusunun istifadəçiləri qaz paylayıcısına Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə qoşulma xidmətinə görə ödəniş etməlidirlər.

1.7. Bu Qaydanın 1.1.2-ci yarımbəndində nəzərdə tutulan tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması bu Qaydanın 1.6-cı bəndinə uyğun olaraq həyata keçirilir.

1.8. Sifarişçinin tikinti obyektinə əlavə qaz həcmi alması tələb olunduqda ona verilmiş mövcud texniki şərtlər nəzərə alınmaqla əlavə qaz həcminin alınması üçün yeni texniki şərtlər verilir, bu zaman qoşulma xidmətinə görə ödəniş edilmir, yalnız əlavə gücün alınması üçün qoşulma nöqtəsinin dəyişdirildiyi və ya qoşulma nöqtəsində dəyişikliklərin edildiyi, eləcə də sifarişçinin müraciəti ilə qoşulma nöqtəsinin dəyişdirildiyi hallarda bu Qaydaya uyğun olaraq yeni texniki şərtlər verilir və qoşulma xidmətinə görə ödəniş edilir.

1.9. Bu Qaydada nəzərdə tutulan müddətlərin axımı sifarişçinin müraciət etdiyi tarixdən hesablanır.

1.10. Sifarişçi verilmiş texniki şərtlərin tələbləri ilə razı olmadıqda inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

1.11. Qaz paylayıcısı bu Qaydaya uyğun olaraq sifarişçinin tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması üçün texniki şərtlər verir. Texniki şərtlər Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsi ilə müəyyən edilmiş tələblər və həmin Məcəllənin 20-ci maddəsində nəzərdə tutulmuş ərazi planlaşdırılması sənədləri nəzərə alınmaqla hazırlanır. Texniki şərtlərin hazırlanması və verilməsi üçün haqq ödənilmir.

1.12. Bu Qayda qüvvəyə minənədək qazpaylayıcı şəbəkəyə qoşulmuş istehlakçıların əlavə qaz həcmi alması və ya istehlakçının müraciəti ilə qoşulma nöqtəsinin dəyişdirilməsi və ya qoşulma nöqtəsində dəyişikliklər bu Qaydaya uyğun olaraq həyata keçirilir.

1.13. Qoşulma nöqtəsi tikinti obyektinə ən yaxın məsafədə yerləşən və texniki parametrlərə uyğun qaz təchizatını təmin edə bilən qazpaylayıcı şəbəkədə müəyyən edilir. Qoşulma nöqtəsində qazpaylayıcı şəbəkənin gücləndirilməsi ilə bağlı tələb olunan bütün işlər qaz paylayıcısı tərəfindən onun hesabına yerinə yetirilir.

1.14. Qoşulma müqaviləsində dəyişiklik edildikdə, qazın alqı-satqı müqaviləsində də müvafiq dəyişikliklər edilir. Tərəflər arasında qoşulma müqaviləsi ləğv edildikdə, qazın alqı-satqı müqaviləsi ləğv edilmiş hesab olunur.

1.15. Tikintiyə icazə icraatı çərçivəsində tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulması məqsədilə texniki şərtlərin və qaz təchizatı layihəsinin verilməsi Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin tələbləri nəzərə alınmaqla bu Qaydalara uyğun olaraq təmin edilir. Bu halda texniki şərtlər həmin Məcəllənin 77-ci maddəsində nəzərdə tutulmuş tikintiyə icazənin qüvvədə olduğu və ya qüvvədəolma müddətinin uzadıldığı müddətə verilir.

1.16. Sifarişçinin barəsində tikintiyə icazə icraatı tətbiq edilən inşa ediləcək tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulması sifarişçi tərəfindən həmin tikinti obyektinin tikintisinə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə alındıqdan sonra onun bu Qaydanın 2.1-ci və ya 3.1-ci bəndində nəzərdə tutulmuş qaydada müraciətinə əsasən bu Qaydaya uyğun olaraq həyata keçirilir.

1.17. Tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulması məqsədilə müraciət edərkən sifarişçidən bu Qaydada nəzərdə tutulmayan məlumatlar və sənədlər tələb edilə bilməz.

1.18. Bu Qaydanın 1.15-ci bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, texniki şərtlərin qüvvədəolma müddəti 2 (iki) il müəyyən edilir.

1.19. Sifarişçi ona verilmiş texniki şərtləri və qaz təchizatı layihəsini itirdikdə, o, həmin sənədlərin dublikatının alınması üçün xidmət nöqtələrinə müraciət edir və ya elektron qaydada həmin sənədləri Sistemdən əldə edir. Həmin sənədlərin dublikatı müraciət edildiyi gün xidmət nöqtələri vasitəsilə sifarişçiyə ödənişsiz verilir.

1.20. Sifarişçinin sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"na uyğun olaraq tənzimlənir.

1.21. Qaz paylayıcı şəbəkənin balans mənsubiyyəti sərhədi qaz paylayıcısı ilə sifarişçi arasında qazın alqı-satqı müqaviləsi ilə müəyyən edilir.

1.22. Qaz paylayıcısı tərəfindən verilmiş texniki şərtlər barədə məlumatlar Sistem vasitəsilə Enerji Məsələlərini Tənzimləmə Agentliyinə (bundan sonra - Agentlik) təqdim edilir.

1.23. Büdcə təşkilatlarının, dövlətin adından yaradılan publik hüquqi şəxslərin, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması üzrə prosedur və tələblər də bu Qayda ilə müəyyən edilir.

### 2. Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə texnoloji qoşulması və əlavə qaz həcmi alması

2.1. Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə texnoloji qoşulması və ya əlavə qaz həcmi alması məqsədilə texniki şərtlərin və qaz təchizatı layihəsinin hazırlanması və verilməsi üçün sifarişçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrinə uyğun olaraq, bu Qaydanın 2.2-ci bəndində qeyd olunan məlumatları Sistemə daxil edir və ya həmin məlumatların Sistemə daxil edilməsi məqsədilə tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazi üzrə xidmət nöqtələrində qaz paylayıcısının nümayəndəsinə ərizə ilə (elektron və ya yazılı formada) müraciət edir.

2.2. Sistemə aşağıdakı məlumatlar daxil edilir:

2.2.1. sifarişçinin (məişət abonenti istisna olmaqla) VÖEN-i;

2.2.2. sifarişçinin şəxsiyyətini təsdiq edən sənədin FİN nömrəsi (VÖEN olmadıqda);

2.2.3. sifarişçinin qazpaylayıcı şəbəkəyə qoşulması nəzərdə tutulan tikinti obyektinin və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin ünvanı (olduğu yer) və həmin tikinti obyekti və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsi üzərində sifarişçinin mülkiyyət və ya digər əşya hüququnu təsdiq edən sənəd barədə məlumatlar (daşınmaz əmlakın dövlət reyestr nömrəsi və daşınmaz əmlakın qeydiyyat nömrəsi) və ya həmin sənədin skan olunmuş surəti (həmin məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda);

2.2.4. tələb olunan qazın ümumi saatlıq buraxılış həcmi;

2.2.5. sifarişçinin mobil telefon nömrəsi, poçt və elektron poçt ünvanı (elektron poçt ünvanı olduqda).

2.3. Tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulması onun sifarişçisinin müraciət etdiyi tarixdən etibarən 20 (iyirmi) gündən gec olmayaraq təmin edilir.

2.4. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq, qaz paylayıcısının nümayəndəsi sifarişçinin xidmət nöqtələri vasitəsilə şəxsən təqdim etdiyi və ya elektron formada göndərdiyi ərizəsini və ona əlavə olunmuş sənədləri qəbul edir, həmin gün qeydiyyata alır və Sistemə daxil edir. Sistemə daxil edilən məlumatlar avtomatik qaydada həmin gün qeydiyyata alınır.

2.5. Sistemə daxil edilmiş məlumatların bu Qaydanın 2.2-ci bəndinin tələblərinə uyğunluğu sifarişçinin müraciət etdiyi gün yoxlanılır. Sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, həmin çatışmazlıqların aradan qaldırılmasının zəruriliyi barədə məlumat qaz paylayıcısının nümayəndəsi tərəfindən xidmət nöqtələri vasitəsilə sifarişçiyə təqdim edilir, yaxud poçt göndərişi vasitəsilə sifarişçiyə göndərilməsi təmin edilir, eyni zamanda ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir və ya Sistemə yüklənir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir. Bu halda sifarişçi bu Qaydanın 2.8-ci bəndində nəzərdə tutulmuş qoşulma xidmətinə görə ödənişi sənədlərdəki çatışmazlıqlar aradan qaldırıldıqdan sonra ödəyir.

2.6. Sifarişçi həmin çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) gün müddətində aradan qaldırır. Bu zaman bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Çatışmazlıqların aradan qaldırıldığı barədə sifarişçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

2.7. Sifarişçi sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 2.6-cı bəndində göstərilən müddətdə aradan qaldırmadıqda, müraciətin baxılmamış saxlanılması haqqında qaz paylayıcısı tərəfindən qərar qəbul edilir və bu barədə məlumat 2 (iki) gün müddətində xidmət nöqtələri vasitəsilə sifarişçiyə təqdim edilir, yaxud poçt göndərişi vasitəsilə sifarişçiyə göndərilməsi təmin edilir, eyni zamanda ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir və ya Sistemə yüklənilir.

2.8. Sistemə daxil edilmiş məlumatların bu Qaydanın 2.2-ci bəndinin tələblərinə uyğunluğu təsdiqləndikdən sonra 1 (bir) gün müddətində sifarişçi ödəniləcək məbləğ barədə qaz paylayıcısının nümayəndəsi tərəfindən Sistemə daxil edilmiş və ya mobil telefon nömrəsinə SMS-lə göndərilmiş bildirişə əsasən, qoşulma xidmətinə görə ödənişi Sistem vasitəsilə qaz paylayıcısının bank hesabına köçürür və ya vəsaitin köçürülməsini təsdiq edən sənədi Sistemə yükləyir və ya Sistemə daxil edilməsi məqsədilə kağız daşıyıcıda qaz paylayıcısının nümayəndəsinə təqdim edir. Sifarişçi bu bəndin tələblərinə uyğun olaraq qoşulma xidmətinə görə ödəniş etmədikdə, bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Sifarişçi bu bəndin tələblərini yerinə yetirdikdən sonra müddətin axımı bərpa olunur.

2.9. Sistem bu Qaydanın 2.8-ci bəndində nəzərdə tutulmuş qoşulma xidmətinə görə ödənişin edildiyi gün daxil olmuş məlumatlar əsasında tələb olunan qaz həcminin verilməsi üçün elektron xəritə üzərindən tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin sərhədindən (girişindən) mövcud qazpaylayıcı şəbəkəyə qoşulma nöqtəsini və həmin nöqtəyədək düz xətt üzrə məsafəni müəyyənləşdirir.

2.10. Bu Qaydanın 2.9-cu bəndinə uyğun olaraq seçilmiş qoşulma nöqtəsindən tikinti obyektinə qaz xətlərinin çəkilməsi ilə əlaqədar optimal trassanın (yolun) layihəsi qaz paylayıcısının Sistem vasitəsilə müraciəti əsasında müvafiq yerli icra hakimiyyəti orqanı, Bakı şəhərinin və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisində isə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən 1 (bir) gün müddətində hazırlanır və trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların) siyahısı bu Qaydanın 5 nömrəli əlavəsində nəzərdə tutulan orqanlarının (qurumlarının) siyahısı əsasında müəyyənləşdirilərək trassanın (yolun) layihəsi ilə birlikdə Sistemə yerləşdirilir. Qaz paylayıcısının nümayəndəsi həmin gün Sistem vasitəsilə həmin orqanlara (qurumlara) müraciət edir.

2.11. Tikinti obyektinə qaz xətlərinin çəkilməsi üçün seçilən trassaya (yola) rəyi tələb olunan orqanlar (qurumlar) 3 (üç) gündən gec olmayaraq Sistemdə münasibət bildirirlər. Həmin orqanlar (qurumlar) tərəfindən münasibət bildirilərkən, qaz təchizatı layihəsində nəzərə alınması üçün trassanın (yolun) razılaşdırılmasına aid texniki tələblər ayrıca göstərilir. Rəyi tələb olunan orqanlar (qurumlar) tərəfindən bu bəndin birinci cümləsində göstərilən müddətdə münasibət bildirilmədikdə, məsələ razılaşdırılmış hesab edilir.

2.12. Tikinti obyektinə qaz xətlərinin çəkilməsi üçün seçilən trassanın (yolun) tələb olunan bütün orqanlarla (qurumlarla) razılaşdırıldığı gün Sistem tərəfindən texniki şərt hazırlanır və həmin gün qaz paylayıcısı tərəfindən qaz təchizatı layihəsinin hazırlanmasına başlanılır.

2.13. Qaz paylayıcısı 4 (dörd) gün müddətində tikinti obyektinə baxış keçirmədən qaz təchizatı layihəsini hazırlayır.

2.14. Sifarişçi texniki şərtlərdə göstərilən qoşulmaya dair tələblərin yerinə yetirilməsinə görə cavabdeh deyildir.

2.15. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən qazpaylayıcı şəbəkəyə qoşulma nöqtəsinədək qaz xətlərinin çəkilməsini və tikinti-quraşdırma işlərini qaz paylayıcısı həyata keçirir. Bu zaman sifarişçi bu Qaydanın 1.2.4-cü yarımbəndində nəzərdə tutulan qoşulma xidmətinə görə ödənişdən əlavə heç bir ödəniş etmir.

2.16. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən mövcud qazpaylayıcı şəbəkəyə qoşulma ilə əlaqədar qaz xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri texniki şərtlərə və qaz təchizatı layihəsinə əsasən ən geci 10 (on) gün müddətində yerinə yetirilir.

2.17. Bu Qaydanın 2.16-cı bəndində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinin başa çatdığı gün tikinti obyektinin qaz xətlərinin qaz paylayıcısı tərəfindən qazpaylayıcı şəbəkəyə fiziki qoşulması təmin edilir, habelə qaz paylayıcısı ilə sifarişçi arasında 2 (iki) nüsxədə qoşulma müqaviləsi, qoşulma aktı, qazın alqı-satqı müqaviləsi imzalanır, həmin sənədlər kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və qaz paylayıcısı tərəfindən həmin gün Sistemə yerləşdirilir. Texniki şərtlər və qaz təchizatı layihəsi qaz paylayıcısı tərəfindən həmin gün Sistemə yerləşdirilir və ya kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və qaz paylayıcısı qazın verilməsini təmin edir.

2.18. Qoşulma müqaviləsi və onun tərkib hissəsi olan texniki şərtlər bu Qaydanın 1 nömrəli əlavəsi, qoşulma aktı isə bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən olunan formada tərtib edilir.

2.19. Qoşulma aktı imzalandığı halda, qaz paylayıcısı qazın alqı-satqı müqaviləsini bağlamaqdan imtina edə bilməz.

2.20. Yaşayış binalarının qazpaylayıcı şəbəkəyə qoşulması üçün bu Qaydanın tələblərinə uyğun olaraq qaz paylayıcısı tərəfindən ümumi texniki şərtlərin verildiyi və həmin texniki şərtlərin tələblərinin icra olunduğu nəzərə alınaraq, həmin binalarda yerləşən mənzillərin qazpaylayıcı şəbəkəyə qoşulması üçün ayrıca texniki şərtlərin və qaz təchizatı layihəsinin alınması, həmçinin qoşulma xidmətinə görə ödəniş edilməsi tələb olunmur.

2.21. Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə mövcud qazpaylayıcı şəbəkənin olmadığı hallarda məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması üçün texniki şərtlərin və qaz təchizatı layihəsinin hazırlanması və verilməsi, habelə onların qazpaylayıcı şəbəkəyə qoşulması bu Qaydanın 3-cü hissəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

### 3. Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə bu Qaydanın 1.1.1-ci yarımbəndində nəzərdə tutulan tələblərə cavab verməyən, habelə ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və əlavə qaz həcmi alması

3.1. Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə bu Qaydanın 1.1.1-ci yarımbəndində nəzərdə tutulan tələblərə cavab verməyən, habelə ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması məqsədilə texniki şərtlərin alınması üçün sifarişçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrinə uyğun olaraq, bu Qaydanın 2.2-ci bəndində qeyd olunan məlumatları Sistemə daxil edir və ya həmin məlumatların Sistemə daxil edilməsi məqsədilə tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazi üzrə xidmət nöqtələrində qaz paylayıcısının nümayəndəsinə ərizə ilə (elektron və ya yazılı formada) müraciət edir.

3.2. Sifarişçinin seçiminə uyğun olaraq qaz təchizatı layihəsinin hazırlanmasının qaz paylayıcısı tərəfindən həyata keçiriləcəyi hallarda sifarişçi texniki şərtlərin və qaz təchizatı layihəsinin alınması üçün bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş qaydada qaz paylayıcısına müraciət edir.

3.3. Texniki şərtlər sifarişçinin müraciət etdiyi tarixdən etibarən 10 (on) gündən gec olmayaraq, bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş hallarda isə texniki şərtlər və qaz təchizatı layihəsi 30 (otuz) gündən gec olmayaraq verilir.

3.4. Sistemə bu Qaydanın 2.4 - 2.8-ci bəndlərinin tələblərinə riayət edilməklə bu Qaydanın 2.2-ci bəndində göstərilən məlumatlar daxil edilir. Sistemə daxil edilmiş məlumatların bu Qaydanın 2.2-ci bəndinin tələblərinə uyğunluğu təsdiqləndikdən sonra 1 (bir) gün ərzində sifarişçi ödəniləcək məbləğ barədə qaz paylayıcısının nümayəndəsi tərəfindən Sistemə daxil edilmiş və ya mobil telefon nömrəsinə SMS-lə göndərilmiş bildirişə əsasən, qoşulma xidmətinə görə ödənişi qaz paylayıcısının bank hesabına köçürür, vəsaitin köçürülməsini təsdiq edən sənədi Sistemə yükləyir və ya Sistemə daxil edilməsi məqsədilə kağız daşıyıcıda qaz paylayıcısının nümayəndəsinə təqdim edir. Sifarişçi bu bəndin tələblərinə uyğun olaraq qoşulma xidmətinə görə ödənişi etmədikdə, bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Sifarişçi bu bəndin tələblərini yerinə yetirdikdən sonra müddətin axımı bərpa olunur. Qaz təchizatı layihəsinin podratçı tərəfindən hazırlanacağı hallarda qaz paylayıcısı 10 (on) gün müddətində texniki şərtləri hazırlayaraq xidmət nöqtələri vasitəsilə kağız daşıyıcıda sifarişçiyə təqdim edir və ya Sistemə yükləyir və sifarişçi ilə 2 (iki) nüsxədə qoşulma müqaviləsi bağlanılır. Qoşulma müqaviləsi kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və qaz paylayıcısı tərəfindən həmin gün Sistemə yerləşdirilir.

3.5. Qaz təchizatı layihəsinin hazırlanmasının qaz paylayıcısı tərəfindən həyata keçiriləcəyi hallarda qaz paylayıcısının nümayəndəsi bu Qaydanın 3.4-cü bəndində nəzərdə tutulan qoşulma xidmətinə görə ödənişin edildiyi gündən etibarən 1 (bir) gün müddətində tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin sərhədindən (girişindən) qazpaylayıcı şəbəkəyə optimal qoşulma nöqtəsini müəyyən edir. Həmin nöqtədən tikinti obyektinə qaz xətlərinin çəkilməsi üçün optimal trassanın (yolun) layihəsinin və həmin trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) siyahısının bu Qaydanın 5 nömrəli əlavəsində nəzərdə tutulan siyahı əsasında müəyyənləşdirilərək 3 (üç) gün müddətində hazırlanması üçün qaz paylayıcısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə tikinti obyektlərinə münasibətdə və Bakı şəhərinin və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisi üzrə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, sərəncamına verilmiş torpaq sahəsində sərəncamında olduğu müddətdə həyata keçirilən şəhərsalma fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə, digər hallarda müvafiq yerli icra hakimiyyəti orqanına Sistem vasitəsilə sorğu göndərir.

3.6. Bu Qaydanın 3.5-ci bəndinə əsasən, qaz paylayıcısının nümayəndəsi tikinti obyektinə qaz həcminin verilməsi üçün seçilən trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) siyahısının Sistemə yerləşdirildiyi gün Sistem vasitəsilə həmin qurumlara müraciət edir. Qaz paylayıcısının nümayəndəsi tərəfindən edilmiş müraciətə və təqdim olunmuş sənədlərə həmin orqanlar (qurumlar) 3 (üç) gündən gec olmayaraq Sistemdə münasibət bildirirlər. Həmin orqanlar (qurumlar) tərəfindən münasibət bildirilərkən, qaz təchizatı layihəsində nəzərə alınması üçün trassanın (yolun) razılaşdırılmasına aid texniki tələblər ayrıca göstərilir. Rəyinin alınması tələb olunan orqanlar (qurumlar) bu bəndin ikinci cümləsində göstərilən müddətdə münasibət bildirilmədikdə, məsələ razılaşdırılmış hesab olunur.

3.7. Qaz paylayıcısının nümayəndəsi orqanların (qurumların) razılığını aldığı gün qaz təchizatı layihəsinin hazırlanması üçün qaz paylayıcısı tərəfindən müəyyən olunan məbləğ barədə bildirişi Sistemə daxil edir və SMS-lə sifarişçinin mobil telefon nömrəsinə göndərir. Sifarişçi bildirişi aldıqdan sonra 1 (bir) gün ərzində, qaz təchizatı layihəsinin hazırlanması üçün tələb olunan vəsaiti Sistem vasitəsilə qaz paylayıcısının bank hesabına köçürür, vəsaitin köçürülməsini təsdiq edən sənəd barədə məlumatı Sistemə daxil edir və ya Sistemə daxil edilməsi məqsədilə qaz paylayıcısının nümayəndəsinə təqdim edir. Sifarişçi bu bəndin tələblərinə uyğun olaraq bildirişdə əks olunan vəsaiti qaz paylayıcısının bank hesabına köçürmədikdə bu Qaydanın 3.4-cü bəndinin ikinci və üçüncü cümlələri tətbiq olunur. Həmin vəsait köçürüldüyü halda sifarişçi ilə 2 (iki) nüsxədə qoşulma müqaviləsi bağlanılır, qoşulma müqaviləsi kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və qaz paylayıcısı tərəfindən həmin gün Sistemə yerləşdirilir. Qaz paylayıcısının nümayəndəsi texniki şərtlər və qaz təchizatı layihəsinin hazırlanması üçün qaz paylayıcısına müvafiq sənədlərlə müraciət edir. Qaz paylayıcısı bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş hallarda 20 (iyirmi) gün müddətində texniki şərtləri və qaz təchizatı layihəsini hazırlayır. Sənədlərin hazırlanması prosesində tikinti obyektinə yerində baxış zamanı sifarişçinin cəlb edilməsi nəzərdə tutulmur.

*Ardı 7-ci səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması qaydası

*Əvvəli 6-cı səh.*

3.8. Bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş hallarda qaz paylayıcısı tərəfindən texniki şərtlər və qaz təchizatı layihəsi bu Qaydanın 3.11-ci bəndində nəzərdə tutulmuş qaydada razılaşdırıldıqdan və xidmət nöqtələrindəki qaz paylayıcısının nümayəndəsinə təqdim olunduqdan sonra qaz paylayıcısının nümayəndəsi tərəfindən həmin gün sifarişçiyə məlumat verilir. Texniki şərtlər və bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş hallarda qaz təchizatı layihəsi xidmət nöqtələri vasitəsilə kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və ya Sistemə yüklənilir.

3.9. Qoşulma müqaviləsi və onun tərkib hissəsi olan texniki şərtlər bu Qaydanın 2 nömrəli əlavəsi, qoşulma aktı isə bu Qaydanın 4 nömrəli əlavəsi ilə müəyyən edilən formada tərtib edilir.

3.10. Qaz təchizatı layihəsinin hazırlanmasının podratçı tərəfindən həyata keçiriləcəyi hallarda sifarişçi bu Qaydanın 3.4-cü bəndinə uyğun olaraq texniki şərtləri əldə etdikdən sonra tikinti obyektinə qaz xətlərinin çəkilməsi üçün optimal trassanın (yolun) layihəsinin və həmin trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) siyahısının bu Qaydanın 5 nömrəli əlavəsində nəzərdə tutulan siyahı əsasında müəyyənləşdirilərək 3 (üç) gün müddətində hazırlanması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə tikinti obyektlərinə münasibətdə və Bakı şəhərinin və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisi üzrə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, sərəncamına verilmiş torpaq sahəsində sərəncamında olduğu müddətdə həyata keçirilən şəhərsalma fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə, digər hallarda isə müvafiq yerli icra hakimiyyəti orqanına yazılı müraciət edir. Sifarişçi tikinti obyektinə təbii qazın verilməsi üçün seçilən trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) dairəsi müəyyən edildiyi gün həmin orqanlara (qurumlara) yazılı müraciət edir və bu halda rəyi tələb olunan orqanlar (qurumlar) tərəfindən bu Qaydanın 3.6-cı bəndində qeyd edilən tələblərə riayət olunur.

3.11. Sənaye qaz qurğularına münasibətdə qaz təchizatı layihəsi qaz paylayıcısı tərəfindən hazırlandıqdan sonra razılaşdırılması üçün Sistem vasitəsilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, qaz təchizatı layihəsi sifarişçinin seçdiyi podratçı tərəfindən hazırlandıqda isə sifarişçi tərəfindən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə və qaz paylayıcısına təqdim edilir. Həmin orqanlar (qurumlar) tərəfindən 3 (üç) gün müddətində münasibət bildirilmədikdə, qaz təchizatı layihəsi razılaşdırılmış hesab olunur. Həmin qurumların rəyləri əsasında müvafiq olaraq qaz paylayıcısı və ya sifarişçi tərəfindən qaz təchizatı layihəsində 3 (üç) gün müddətində müvafiq dəyişikliklər edildikdən sonra bu bəndin tələblərinə uyğun olaraq qaz təchizatı layihəsi yenidən razılaşdırılır. Layihəyə dair bütün iradlar ilkin rəydə bildirilməlidir. Qaz paylayıcısı və ya sifarişçi tərəfindən həmin qurumların ilkin rəyləri tam nəzərə alındığı halda yeni rəy bildirilə bilməz.

3.12. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən qazpaylayıcı şəbəkəyə qoşulma nöqtəsinədək qaz xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri qaz paylayıcısı tərəfindən həyata keçirildikdə, qaz paylayıcısının nümayəndəsi tərəfindən qaz paylayıcısının hazırladığı smeta sənədlərinə əsasən, tikinti-quraşdırma işləri üçün tələb olunan məbləğ barədə bildiriş Sistemə daxil edilir və SMS-lə sifarişçinin mobil telefon nömrəsinə göndərilir. Həmin işlər texniki şərtlərə və qaz təchizatı layihəsinə əsasən, qoşulma müqaviləsində göstərilən müddətdə və bildirişdə əks olunan vəsait sifarişçi tərəfindən qaz paylayıcısının bank hesabına köçürüldükdən sonra yerinə yetirilir. Sifarişçi bildirişə əsasən tikinti-quraşdırma işləri üçün tələb olunan məbləği Sistem vasitəsilə qaz paylayıcısının bank hesabına köçürür, vəsaitin köçürülməsini təsdiq edən sənəd barədə məlumatı Sistemə daxil edir və ya Sistemə daxil edilməsi məqsədilə qaz paylayıcısının nümayəndəsinə təqdim edir.

3.13. Qaz təchizatı layihəsinin hazırlanması, həmçinin qaz xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri podratçı tərəfindən həyata keçirildikdə, işlər yerinə yetirildikdən sonra sifarişçi qaz paylayıcısına bu barədə kağız daşıyıcıda məlumat verir və ya həmin məlumatı Sistemə yerləşdirir.

3.14. Sənaye qaz qurğularına münasibətdə bu Qaydanın 3.12-ci və 3.13-cü bəndlərində nəzərdə tutulmuş işlər yerinə yetirildikdən, habelə sifarişçi tərəfindən tikinti obyektində qaz xətləri çəkildikdən və sənaye qaz qurğuları quraşdırıldıqdan sonra 5 (beş) gün müddətində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Agentliyin, bu işlər podratçı tərəfindən yerinə yetirildiyi halda isə həmçinin həmin podratçının və qaz paylayıcısının nümayəndələrindən ibarət işçi komissiyası tərəfindən sifarişçinin iştirakı ilə görülən işlərə baxış keçirilir və tikinti-quraşdırma işlərinin texniki şərtlərə, qaz təchizatı layihəsinə və tikinti norma və qaydalarına uyğun yerinə yetirilməsi müəyyən edildiyi halda, sənaye qaz qurğuları istismara qəbul edilir (aktla rəsmiləşdirilir) və tikinti obyektinin qaz xətlərinin qaz paylayıcısı tərəfindən qazpaylayıcı şəbəkəyə fiziki qoşulması təmin edilir.

3.15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 oktyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydası"nın tələblərinə uyğun olaraq qazpaylayıcı şəbəkəyə qoşulan təhlükə potensiallı obyektlər kateqoriyasına aid olan tikinti obyektləri təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilir.

3.16. Sənaye qaz qurğularının texniki pasport göstəricilərinə uyğun normal və davamlı işinin təmin edilməsi üçün sazlama təşkilatı tərəfindən buraxılış-sazlama və rejim-sazlama işləri aparılır. Buraxılış-sazlama və rejim-sazlama işlərinin yekununa dair sazlama təşkilatı tərəfindən müvafiq akt tərtib olunur.

3.17. Agentlik tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın tələblərinə uyğun olaraq sənaye qaz qurğusunun istismarına icazə vermək üçün həmin qurğulara texniki baxış keçirilərək sənaye qaz qurğusunun istismarına icazə verilir, sifarişçi ilə qaz paylayıcısı arasında 2 (iki) nüsxədə qoşulma aktı imzalanır, qazın alqı-satqı müqaviləsi bağlanılır və həmin sənədlər Sistemə yerləşdirilir, kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və qaz paylayıcısı tərəfindən qazın verilməsi təmin edilir.

3.18. Məişət qaz qurğularına münasibətdə bu Qaydanın 3.12-ci və 3.13-cü bəndlərində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinin başa çatdırıldığı gün məişət qaz qurğusunun istismara qəbulu üçün məişət qaz qurğusu qaz paylayıcısı tərəfindən sınaqdan keçirilir, sifarişçinin (bu işlərin podratçı tərəfindən həyata keçirildiyi hallarda, habelə podratçının) və qaz paylayıcısının nümayəndələrinin iştirakı ilə görülən işlərə baxış keçirilir və tikinti-quraşdırma işlərinin texniki şərtlərə, qaz təchizatı layihəsinə və tikinti norma və qaydalarına uyğun yerinə yetirilməsi müəyyən edildiyi halda sifarişçi ilə qaz paylayıcısı arasında 2 (iki) nüsxədə qoşulma aktı imzalanır, qazın alqı-satqı müqaviləsi bağlanılır və həmin sənədlər Sistemə yerləşdirilir, kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və qaz paylayıcısı qazın verilməsini təmin edir.

3.19. Bu Qaydanın 3.18-ci bəndinə uyğun olaraq qoşulma aktı imzalandığı halda, qaz paylayıcısı tərəfindən qazın alqı-satqı müqaviləsinin bağlanılmasından imtina edilə bilməz.

3.20. Bu Qaydanın 3.14-cü və 3.18-ci bəndlərində nəzərdə tutulmuş hallarda baxış keçirilərkən qaz çəkilməsi və tikinti-quraşdırma işlərinin texniki şərtlərə, qaz təchizatı layihəsinə və tikinti norma və qaydalarına uyğun aparılmadığı müəyyən olunduqda, bu barədə bu Qaydanın 3.14-cü bəndində nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Agentlik tərəfindən sifarişçiyə və tikinti-quraşdırma işlərini yerinə yetirən podratçıya, bu işlər qaz paylayıcısı tərəfindən yerinə yetirildikdə isə qaz paylayıcısına, bu Qaydanın 3.18-ci bəndində nəzərdə tutulmuş hallarda isə qaz paylayıcısı tərəfindən sifarişçiyə və podratçıya 2 (iki) gün müddətində aradan qaldırılmalı çatışmazlıqlar göstərilməklə əsaslandırılmış cavab verilir.

3.21. Sifarişçi tikinti-quraşdırma işlərini yerinə yetirən podratçı və ya qaz paylayıcısı 2 (iki) gün müddətində bu Qaydanın 3.20-ci bəndinə uyğun olaraq verilən cavabda göstərilmiş çatışmazlıqları aradan qaldırır və görülən işlərə bu Qaydanın 3.14-cü və 3.18-ci bəndlərinə uyğun olaraq yenidən baxış keçirilir.

3.22. Sifarişçi tikinti-quraşdırma işlərini yerinə yetirən podratçı və ya qaz paylayıcısı göstərilən çatışmazlıqlarla razılaşmadıqda bununla bağlı inzibati və məhkəmə qaydasında şikayət edə bilər.

3.23. Qaz təchizatı sisteminin layihələndirilməsi zamanı texniki şərtlərin tələblərindən kənara çıxma zərurəti yarandıqda, bu kənara çıxmaların qaz paylayıcısı ilə razılaşdırılması üçün sifarişçi kənara çıxma zərurəti yaradan səbəblərə dair əsaslandırılmış məlumatlar qeyd edilmiş ərizə ilə qaz paylayıcısına və ya xidmət nöqtələrinə müraciət edir. Qaz paylayıcısı 2 (iki) gün müddətində sifarişçi tərəfindən təqdim edilmiş kənara çıxma zərurətinə dair məlumatlar əsaslı hesab edildikdə, texniki şərtlərdə müvafiq dəyişikliklər edilməsi barədə və ya texniki şərtlərin qüvvədə saxlanılması barədə qərar qəbul edir.

"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"na
**1 nömrəli əlavə**

**Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə texnoloji qoşulma müqaviləsi**

___________ " _____ " ___________ 20 ____ il

Biz, aşağıda imza edənlər
____________________________________________
sifarişçi _______________________________________
______________________________________ şəxsində və
*(soyadı, adı, atasının adı)*

qaz paylayıcısı adından
________________________________________ şəxsində
*(vəzifəsi)*
____________________________________________
*(soyadı, adı, atasının adı)*

tərəflər arasında qazpaylayıcı şəbəkəyə qoşulma müqaviləsi (bundan sonra - Müqavilə) bağlanılır.

**1. Müqavilənin şərtləri**

1.1. Bu Müqavilə ilə qaz paylayıcısı qazpaylayıcı şəbəkənin qoşulma üçün hazırlığının və gücləndirilməsinin təmin edilməsi (layihələndirmə, tikinti, yenidənqurma) daxil olmaqla, sifarişçinin ______________________ ünvanında inşa edilmiş (inşa ediləcək) ____________ tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulması öhdəliyini öz üzərinə götürür.

1.2. Qoşulma nöqtəsi texniki şərtlərdə göstərilmişdir və sifarişçinin qazpaylayıcı şəbəkəyə qoşulması nəzərdə tutulan tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazinin sərhədindən __________ metr məsafədə yerləşir.

1.3. Texniki şərtlər bu Müqavilənin ayrılmaz tərkib hissəsidir.

1.4. Texniki şərtlərin qüvvədəolma müddəti bu Müqavilənin bağlanıldığı tarixdən etibarən ____ ildir.

**2. Tərəflərin öhdəlikləri**

2.1. Qaz paylayıcısının öhdəlikləri:

2.1.1. tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən qazpaylayıcı şəbəkəyə qoşulma nöqtəsinədək qaz xətlərinin çəkilməsini və tikinti-quraşdırma işlərini həyata keçirmək;

2.1.2. qaz xətlərinin çəkilməsi və tikinti-quraşdırma işlərinin yerinə yetirildiyi gün sifarişçi ilə 2 (iki) nüsxədə qoşulma aktı tərtib etmək, qazın alqı-satqı müqaviləsini bağlamaq, həmin sənədləri kağız daşıyıcıda sifarişçiyə təqdim etmək və həmin gün Kommunal Xidmətlərin Vahid İnformasiya Sisteminə yerləşdirmək, o cümlədən texniki şərtləri və qaz təchizatı layihəsini həmin Sistemə yerləşdirmək və ya kağız daşıyıcıda sifarişçiyə təqdim etmək və qazın verilməsini təmin etmək.

2.2. Sifarişçinin öhdəliyi:

2.2.1. qaz paylayıcısı tərəfindən sifarişçinin qaz xətlərinin qazpaylayıcı şəbəkəyə fiziki qoşulması həyata keçirildikdən sonra qoşulma aktını imzalamaq.

**3. Müqavilədə dəyişiklik edilməsi və Müqavilənin ləğv edilməsi şərtləri**

3.1. Bu Müqavilədə tərəflərin yazılı razılığı ilə dəyişiklik edilə bilər.

3.2. Bu Müqavilə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş əsaslarla tərəflərdən birinin tələbi ilə və ya tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər.

İmzalar:

Qaz paylayıcısı adından _____________________________

Sifarişçi ______________________________________

"Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə texnoloji qoşulma müqaviləsi"nə
**əlavə**

**TEXNİKİ ŞƏRTLƏR № ______**

**" _____ " __________ 20 ___ il**

______________________________________________
*(texniki şərtləri alan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı; hüquqi şəxsin adı, hüquqi ünvanı)*
______________________________________________
*(müraciətin daxilolma nömrəsi və tarixi)*

Sifarişçinin tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulması

1. Tələb olunan saatlıq qaz həcmi ________________________
2. Qazın təzyiqi _______________________________________
3. Qoşulma nöqtəsi ___________________________________
*(qazpaylayıcı şəbəkə, qazın ümumi buraxılış həcminin yuxarı həddi)*
4. Uçot cihazları _________________________________

**Təsdiq edirəm:**

Texniki şərti verən qaz paylayıcısı __________________________
*(vəzifəsi, soyadı, adı, atasının adı)*

" _____ " ___________ 20 ___il

"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"na
**2 nömrəli əlavə**

**Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə (məişət qaz qurğuları quraşdırılan və mövcud qazpaylayıcı şəbəkəyə qoşulan tikinti obyektləri istisna olmaqla), habelə ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulma müqaviləsi**

___________ " _____ " ___________ 20 ____ il

Biz, aşağıda imza edənlər
____________________________________________
sifarişçi________________________________________
______________________________________ şəxsində və
*(soyadı, adı, atasının adı)*

Qaz paylayıcısı adından _________________________ şəxsində
*(vəzifəsi)*
____________________________________________
*(soyadı, adı, atasının adı)*

tərəflər arasında qazpaylayıcı şəbəkəyə qoşulma Müqaviləsi bağlanılır.

**1. Müqavilənin şərtləri**

1.1. Bu Müqavilə ilə qaz paylayıcısı qazpaylayıcı şəbəkənin qoşulma üçün hazırlığının və gücləndirilməsinin təmin edilməsi (layihələndirmə, tikinti, yenidənqurma) daxil olmaqla, sifarişçinin ______________________ ünvanında inşa edilmiş (inşa ediləcək) _____________ tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulması öhdəliyini öz üzərinə götürür.

1.2. Qoşulma nöqtəsi texniki şərtlərdə göstərilmişdir və sifarişçinin qazpaylayıcı şəbəkəyə qoşulması nəzərdə tutulan tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazinin sərhədindən __________ metr məsafədə yerləşir.

1.3. Texniki şərtlər bu Müqavilənin ayrılmaz tərkib hissəsidir.

1.4. Texniki şərtlərin qüvvədəolma müddəti bu Müqavilənin bağlanıldığı tarixdən etibarən ____ ildir.

**2. Tərəflərin öhdəlikləri**

2.1. Qaz paylayıcısının öhdəlikləri:

2.1.1. "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın (bundan sonra - Qayda) 3.7-ci və 3.12-ci bəndlərində nəzərdə tutulmuş hallarda bu Müqavilənin 2.2.2-ci yarımbəndində qeyd olunan müvafiq vəsait qaz paylayıcısının bank hesabına köçürüldükdən sonra 20 (iyirmi) gün müddətində qaz təchizatı layihəsini hazırlamaq, ________ gün müddətində tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi və ya yerləşəcəyi torpaq sahəsindən qazpaylayıcı şəbəkəyə qoşulma nöqtəsinədək qaz xətlərini çəkmək və tikinti-quraşdırma işlərini yerinə yetirmək;

2.1.2. qaz xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri yerinə yetirildikdən sonra görülən işlərə baxış keçirilməsində iştirak etmək, qoşulma aktını, sifarişçi ilə qazın alqı-satqı müqaviləsini imzalamaq, həmin sənədləri Kommunal Xidmətlərin Vahid İnformasiya Sisteminə (Sistemə) yerləşdirmək, kağız daşıyıcıda sifarişçiyə təqdim etmək və qazın verilməsini təmin etmək.

2.2. Sifarişçinin öhdəlikləri:

2.2.1. bu Müqavilədə nəzərdə tutulmuş öhdəlikləri yerinə yetirmək;

2.2.2. Qaydanın 3.7-ci bəndində nəzərdə tutulan hallarda qaz təchizatı layihəsinin hazırlanması üçün və 3.12-ci bəndində nəzərdə tutulmuş hallarda qaz paylayıcısı tərəfindən hazırlanmış smeta sənədlərinə əsasən müəyyən edilmiş vəsaiti qaz paylayıcısının bank hesabına köçürmək;

2.2.3. Qaydanın 3.13-cü bəndində nəzərdə tutulmuş işləri yerinə yetirdikdən sonra qaz paylayıcısına bu barədə məlumat vermək;

2.2.4. görülən işlərə qaz paylayıcısı tərəfindən baxış keçirilməsində iştirak etmək;

2.2.5. qaz paylayıcısı tərəfindən sifarişçinin qaz xətlərinin qazpaylayıcı şəbəkəyə fiziki qoşulması həyata keçirildikdən sonra qoşulma aktını imzalamaq.

**3. Müqavilədə dəyişiklik edilməsi və Müqavilənin ləğv edilməsi şərtləri**

3.1. Bu Müqavilədə tərəflərin yazılı razılığı ilə dəyişiklik edilə bilər.

3.2. Bu Müqavilə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş əsaslarla tərəflərdən birinin tələbi ilə və ya tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər.

**İmzalar:**

**Qaz paylayıcısı adından _____________________________**

**Sifarişçi ______________________________________**

"Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə (məişət qaz qurğuları quraşdırılan və mövcud qazpaylayıcı şəbəkəyə qoşulan tikinti obyektləri istisna olmaqla), habelə ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulma müqaviləsi"nə
**əlavə**

**TEXNİKİ ŞƏRTLƏR № ______**

**" _____ " __________ 20 ___ il**

______________________________________________
*(texniki şərtləri alan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı; hüquqi şəxsin adı, hüquqi ünvanı)*
______________________________________________
*(müraciətin daxilolma nömrəsi və tarixi)*

Sifarişçinin tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulması

1. Tələb olunan saatlıq qaz həcmi ______________________

2. Qazın təzyiqi ___________________________________

3. Qoşulma nöqtəsi ___________________________________
*(qazpaylayıcı şəbəkə, qazın ümumi buraxılış həcminin yuxarı həddi)*

4. Uçot cihazları __________________________________

**Təsdiq edirəm:**

Texniki şərti verən qaz paylayıcısı __________________________
*(vəzifəsi, soyadı, adı, atasının adı)*

" _____ " ___________ 20 ___ il

**M.Y.**

"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"na
**3 nömrəli əlavə**

**Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə qoşulma**
**AKTI**

" _____ " ___________ 20 ___ il ___________ şəhəri (rayonu)

Biz, aşağıda imza edənlər:

1. Qaz paylayıcısının nümayəndəsi ___________________________
*(vəzifəsi, soyadı, adı, atasının adı)*

2.Sifarişçi
______________________________________________
*(soyadı, adı, atasının adı)*
______________________________________________
*(tikinti obyektinin yerləşdiyi ünvan)*

Qaz təchizatı layihəsi______ №-si ilə ________ tarixində verilmişdir.

Tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulmasına qərar verildi.

Qoşulma başa çatdırıldı _____________ (tarix) _____________ (saat)

İmzalar:

__________________ ___________________
(soyadı, adı)
___________________
(soyadı, adı)
___________________
(soyadı, adı)

**M.Y.**

"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"na
**4 nömrəli əlavə**

**Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə (məişət qaz qurğuları quraşdırılan və mövcud qazpaylayıcı şəbəkəyə qoşulan tikinti obyektləri istisna olmaqla), habelə ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulma**
**AKTI**

" _____ " ___________ 20 ___ il ___________ şəhəri (rayonu)

Biz, aşağıda imza edənlər:

1. Qaz paylayıcısının nümayəndəsi ___________________________
*(vəzifəsi, soyadı, adı, atasının adı)*

2. Sifarişçi
______________________________________________
*(soyadı, adı, atasının adı)*
______________________________________________
*(tikinti obyektinin yerləşdiyi ünvan)*

ünvanında yerləşən tikinti obyektinədək quraşdırılmış qaz qurğularına və çəkilmiş qaz xətlərinə baxış keçirdik. Baxış zamanı qaz xətlərinin və qurğularının Texniki şərtlərə, qaz təchizatı layihəsinə və tikinti norma və qaydalarına uyğun quraşdırıldığı, sayğaclarla təchiz edildiyi və qazpaylayıcı şəbəkəyə qoşulmaq üçün hazır olduğu müəyyən edildi.

Qaz təchizatı layihəsi______ №-si ilə ________ tarixində verilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, tikinti obyektinin qazpaylayıcı şəbəkəyə qoşulmasına qərar verildi.

Qoşulma başa çatdırıldı _____________ (tarix) _____________ (saat)

İmzalar:

__________________ ___________________
(soyadı, adı)
__________________
(soyadı, adı)
__________________
(soyadı, adı)

**M.Y.**

"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"na
**5 nömrəli əlavə**

**Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyin alınması tələb olunan qurumların**
**SİYAHISI**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (bu siyahının 11-ci, 15-ci və 19-cu bəndlərində nəzərdə tutulanlar istisna olmaqla, qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).
2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi.
3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi.
4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi.
5. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi.
6. Müvafiq inzibati ərazi vahidi üzrə yerli icra hakimiyyəti orqanı.
7. Müvafiq inzibati ərazi vahidi üzrə yerli özünüidarəetmə orqanı.
8. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi.
9. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti.
10. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti.
11. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi (tabeliyindəki qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).
12. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti.
13. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti.
14. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti.
15. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi (tabeliyindəki qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).
16. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti.
17. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti.
18. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.
19. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi (Şuşa şəhəri ərazisinə münasibətdə).

# Kəlbəcərdə Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun iclası keçirilib

## Bu il Kəlbəcər rayonu ərazisində yaşayış infrastrukturu, energetika və ekoloji layihələr olmaqla 4 min 719 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib



Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun növbəti səyyar iclası avqustun 31-də Kəlbəcər rayonunda keçirilib.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyindən (ANAMA) AZƏRTAC-a verilən məlumata görə, tədbirdə ANAMA-nın İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov, İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda çıxış edən Vüqar Süleymanov işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb edilmiş qurumlar tərəfindən illik tədbirlər planına uyğun həyata keçirilən işlərin gedişatı barədə məlumat verib. Habelə mina təhlükəsi ilə mübarizə fəaliyyətində qurumların birgə təmizləmə layihələrinin icrasının, agentlik tərəfindən aparılan monitorinq və keyfiyyətə nəzarət yoxlamalarının keçirilməsinin vacibliyini vurğulayıb.

İşçi qrupda təmsil olunan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin (MN) rəsmisi MN-in humanitar minatəmizləmə əməliyyatlarına cəlb olunan istehkamçıları tərəfindən 2023-cü il ərzində Kəlbəcər rayonu ərazisində yaşayış infrastrukturu, energetika və ekoloji layihələr olmaqla 4 min 719 hektar ərazinin mina və partlamamış hərbi sursatlardan təmizləndiyini bildirib.

İclasda işğaldan azad edilmiş ərazilərdə hökumət tərəfindən müəyyənləşdirilmiş müvafiq layihələrin icrası məqsədilə ərazilərin mina və partlayıcı qurğulardan təmizlənməsi fəaliyyəti barədə hesabatlar dinlənilib, hesabatlarda əksini tapmış məsələlər müzakirə olunub, eləcə də əməliyyatlara cəlb olunmuş texnika və avadanlıqlar barədə məlumat verilib.

Eyni zamanda mina təhlükəsi ilə mübarizə fəaliyyətində informasiya dəstəyinə qurumlararası müştərək layihələrin icrasının vacibliyi vurğulanıb. Bu sahədə birgə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Kəlbəcər rayonuna səfər çərçivəsində İşçi qrup üzvləri Müdafiə Nazirliyinin icra etdiyi "Yanşaq yaşayış məntəqəsi" təmizləmə layihəsi, bitmiş layihə olan "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası ilə tanış olub, layihələr barədə məlumatlandırılıblar.

# Separatçılar arasında münasibət kəskinləşib

Xankəndidə separatçılar arasında qarşıdurma gündən-günə gərginləşir. Vəziyyət o dərəcəyə çatıb ki, separatçılar arasında qarşıdurma silahlı münaqişə həddinə çatıb. Böyük ehtimalla, yaxın günlərdə bir-birlərinə güllə atacaqlar. Dünən separatçıların rəhbəri Araik Arutyunyan "prezident" postundan istefasına dair ərizəsini Xankəndidəki qondarma parlamentə təqdim edib.

Hayastanın "Hraparak" nəşri yazıb ki, istefaya dair ərizə üç gün ərzində "qüvvəyə minməlidir". Daha sonra 7 günlük müddət ərzində "fraksiyalar" "namizəd"lər irəli sürəcək və "parlament" yeni "rəhbər" seçəcək. "Seçki"də iştirak edənlərin yarıdan çoxunun lehinə səs verəcəyi "namizəd" seçiləcək. İkidən çox "namizəd"in lehinə səs verilirsə və onların heç birinə yarıdan çox səs toplanmırsa, 14 gündən sonra "ikinci tur" keçirilir və ən çox səs qazanan iki "namizəd" iştirak edir. "İkinci tur"da daha çox səs toplayan "namizəd" seçilir. Qondarma rejimin "parlamenti"ndə düşünürlər ki, iş "ikinci mərhələ"yə keçməyəcək.

Qeyd edək ki, Arutyunyanın bu qərarı böyük təzyiq nəticəsində aldığı bildirilir. Lakin yerli siyasətçi Metaxe Akopyan mediaya müsahibəsində bununla razılaşmadığını bildirib. O, qondarma "parlamentin" son altı saatlıq iclası zamanı, sadəcə, vəziyyətdən çıxış yolu ilə bağlı çoxsaylı təkliflər verildiyini söyləyib.

Metaxe Akopyan mənsub olduğu siyasi qüvvənin Bakı-Xankəndi danışıqlarına alternativ təklif etdiyini də deyib: "Təklif etdik ki, "3+1" deyilən format yaradılsın. 10 noyabr 2020-ci il tarixli bəyanatını imzalayan tərəflərin nümayəndələrindən işçi qrupu təşkil edilsin. Həm Hayastan, həm də Rusiya Federasiyası yerli ermənilərin də (Akopyan buna uydurma "Arsax" adını qoyub) iştirak edəcəyi bu qrupun yaradılmasına çalışsın. Əgər hökumət bunu bacararsa, deməli, yeganə çıxış yolu budur. Əgər bu yoxsa, o zaman başqalarına fürsət verməlisən. Arutyunyan da bunun nəzərə alınacağını dedi və daha sonra istefa verdi".

Hayastanda revanşist qüvvələr yaranmış qarışıqlıqdan istifadə edərək məkrli niyyətlərini həyata keçirmək istəyirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Son günlərdəki xaosdan yararlanmağa çalışan, ölkədə nüfuzunu itirən keçmiş hərbi xunta nümayəndələrinin sərsəmləmələrinə böyük əksəriyyət önəm belə vermir.

Dünən Xankəndidə və İrəvanda revanşist qüvvələrin iştirakı ilə etirazlar davam edib. Aksiyada Laçın-Xankəndi yolunun açılması, Qarabağın "blokada"sına son qoyulması tələb edilib. Bir qrup insan əllərində plakat İrəvanın mərkəzi küçələrini bağlayaraq nəqliyyatın hərəkətinə mane olub.

Göründüyü kimi, hərbi xuntanın və ona bənzər digər araqızışdıranların etiraz aksiyaları keçirməsi erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Bəzi yerlərdə hava yağıntılı olacaq

Azərbaycanda sentyabrın 2-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-23°, gündüz 27-31° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi norma daxilində - 760 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 24-25°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 25-26° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 30-35° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 17-22°, bəzi yerlərdə 26°-dək isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 27-32° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 25-30° isti, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 30-35° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-20°, gündüz 27-32° isti, dağlarda gecə 16-19°, gündüz 20-25° isti olacağı gözlənilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |



**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 05.09.2023-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan akkumulyatorların satın alınması məqsədilə

**MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 8 sentyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu - (012) 404-37-00, daxili: 1263.**
**Ünvan - Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**

***Tender komissiyası***

**"BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!**

**"Bank Respublika" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 06 oktyabr 2023-cü il saat 12:00-da Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.**

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC tərəfindən yeni səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırılmasının təsdiq edilməsi.
4. Yeni səhmlərin buraxılması və nizamnamə kapitalının artırılması ilə əlaqədar "Bank Respublika" ASC-nin Nizamnaməsinə müvafiq dəyişikliyin təsdiq edilməsi.

***Rəhbərlik***


# Yeni dövlət proqramı sosial xidmətlər sistemində yeni inkişaf mərhələsinə keçidi şərtləndirir

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı" ölkəmizdə sosial xidmətlər sistemində yeni inkişaf mərhələsinə keçidi şərtləndirir.

Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu dövlət proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirəcək.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, 2026-cı ilin sonunadək hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin və bu sahədə ixtisaslı kadr potensialının formalaşması, sosial xidmətlərin əhatəsinin genişlənməsi, ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması yeni dövlət proqramının əsas hədəf göstəriciləridir.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2026-cı ilin sonunadək sosial xidmət sistemi ilə bağlı qanunvericilik bazasının təkmilləşəcəyi, həssas əhali qruplarına göstərilən xidmətlərin kəmiyyət və keyfiyyətinin artacağı gözlənilir. Eləcə də müntəzəm həyata keçirilən profilaktik abilitasiya və reabilitasiya tədbirləri stasionar sosial xidmətə ehtiyacı olan şəxslərin sayının azalmasına imkan verəcək.

Həmçinin proqram üzrə görüləcək tədbirlər xidmət təklifinin artması ilə rəqabət mühitinin güclənməsinə səbəb olacaq. Bu da öz növbəsində sosial xidmətlərin keyfiyyətinə müsbət təsir göstərəcək. Dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının ildən-ilə artırılması, innovativ texnologiyaların tətbiqi ilə sosial xidmət sahəsində vahid informasiya məkanının yaradılması da nəzərdə tutulur.

Yeni dövlət proqramı ilə sosial xidmət sahəsində elektron xidmətlərin təkmilləşməsi və yeni e-xidmətlərin tətbiqi, sosial xidmət infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması, sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, bu sahədə dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və s. nəzərdə tutulur.

*Sumqayıt şəhər 34 saylı orta məktəb tərəfindən Ceyhunə Hətəm qızı (Piriyeva) Aşurovanın adına verilmiş B №472147 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in İcraiyyə Komitəsi Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin HİRK-nin sədri Mirkazım Abasova bacısı

**MİRVARİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5496
Sifariş 2179

Qiyməti 40 qəpik